## Sərdar Cəlaloğlu "Yeni Müsavat" tərəfindən niyə şantaj edilir?


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№11 (3350) 18 Mart / 2025-ci il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qəpik


ANA XƏBƏR



## Ukraynaya 3,5 milyard avroluq yardım...

# Ermənistanla yeni savaş başlayır?

Yaxud "yeni müharibə" xəbərlərini kimlər və nə məqsədlə yayır?



3

GÜNÜN NƏBZİ

Gündəm

## "Bu, bizə qarşı savaşdır..."



Zahid Oruc: "O da həqiqətdir ki, daxildə də narkotiki qazanc mənbəyinə çevirən dairələr olub"

3

Fakt

## 1 maydan etibarən Gürcüstana qatarla gedib-gəlmək olacaq?

"Bakı-Tbilisi-Bakı dəmir yolu reysinin açılması ilə bağlı hələ qərar yoxdur"

2

Toplum

## "Bank VTB"-yə qarşı dələduzluq iddiası

Kreditini hər ay vaxtında ödəyən vətəndaş banka necə borclu qaldı?

7

Şikayət

## Şəhid qızı Təhsil şöbəsinin müdirindən şikayətçidir

"Dedi ki, istəyirsən get Prezidentə şikayət et, sənə iş verməyəcəm"

10

Toplum

## "Sədərək Yusif" evindən oğurluq edən qulluqçuya 10 il iş verdirib

Üstəlik, iş adamına dəyən zərər tam şəkildə ödənilsə də, məhkəmə onu 485 min manat borclu çıxarıb...

7

Aktual

## "Güllələnmə cəzası versən də, narkotikin kökü kəsilməyəcək"



Namizəd Səfərov: "Narkotik ticarətinin qarşısını daha mütərəqqi yolla almaq lazımdır"

5

Siyasət

## Sabiq nazirdən sülh sazişi haqda açıqlama



Tofiq Zülfüqarov: "Öncə Zəngəzur dəhlizi məsələsi həllini tapmalıdır..."

4

Layihə

## Azadlığı cəzasızlıqla səhv salanda...

Yaxud ölkəmizdə fikir, söz və məlumat azadlığının pozulması haqda iddiallar nə dərəcədə ədalətlidir?!

Azərbaycan dövləti zaman-zaman müxtəlif beynəlxalq təşkilatlar tərəfindən insan hüquq və azadlıqlarının pozulduğu, fikir, söz və məlumat azadlığının basqı altında qaldığı ölkələr siyahısına daxil edilir. Biz bu yazımızda həmin təşkilatların nə dərəcədə haqlı və ya haqsız olduqlarını araşdırmaq fikrində deyilik. Hər halda, bu, siyasilərin və hüquqçuların işidir...

12

Baxış

## SOS!

Və ya Azərbaycan kinosunun ağrıları

Təcili tədbir görülməsə faciə qaçılmazdır!..

Söhbət sıxılıb "to be, o not to be?" arasında qalan "Azərbaycanfilm" kinostudiyasından gedir... O kinostudiyadan ki, xalqımıza saysız-hesabsız sevilən filmlər və dəyərli sənətkarlar bəxş edib. O kinostudiyadan ki, neçə onilliklərdir milli-mənəvi və əxlaqi dəyərlərin flaqmanı kimi şərəfli missiya daşıyıb.

Və nəhayət, o kinostudiyadan ki, bu gün az qala aqoniya vəziyyətində - son günlərini yaşayır...

6

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№11 (3350) 18 Mart / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qəpik

**Əyləncə səhifəsi**

## Həbs olunmamaq üçün hər il hamilə qalır:13 uşağı var



**İstanbulun Bayrampaşa qəsəbəsində 16 yanvarda evin soyğununun ardından polisə edilən şikayət nəticəsində əməliyyat başlanıb. Polis əməkdaşları 51 fərqli iş yeri, ictimai nəqliyyat vasitələri, təhlükəsizlik kameraları və şəhər təhlükəsizlik idarəetmə sistemi görüntülərini incələyərək şübhəlilərin kimliyini müəyyənləşdirib və Ceylan Çiçək (36) ilə Belkız Ura-nı (36) tutmaq üçün əməliyyata başlayıb.**

Hamilə olduğu öyrənilən Çiçək polis əməkdaşları onu yaxalamaq üçün evinə gəldiyi zaman pəncərədən qaçmağa cəhd edib. Lakin müdaxilə nəticəsində xəsarət almadan tutulub. Çiçəyin polis bölməsində aparılan araşdırmalarında 13 övladının olduğu, 14-cü uşağına hamilə qaldığı, 189 müxtəlif cinayət hadisəsindən qeydiyyatının olduğu, 20 fərqli cinayətə görə axtarışda olduğu, 12 il qəti həbs cəzasının və hamiləlik səbəbindən təxirə salınmış 472 il həbs cəzasının olduğu aşkarlanıb.

İstintaqdan sonra məhkəməyə göndərilən Çiçək həbs edilərək cəzaçəkmə müəssisəsinə aparılıb. 54 fərqli cinayətdən polis qeydi olduğu müəyyən edilən Belkız Ura-nın tutulması üçün əməliyyatlar davam edir.

# Məşhur müğənni sifarişli qətlin təşkilində ittiham olundu



**Məşhur müğənni Alla Puqaçova Rusiyada sifarişli qətlin təşkilində ittiham olunub və indi dindirməyə çağırıla bilər.**

Xarici KİV-lər xəbər verir ki, Federal Təhlükəsizlik və Korrupsiya ilə Mübarizə Layihəsinin (FTKL) rəhbəri Vitali Borodin ona qarşı sui-qəsd cəhdinin olduğunu iddia edib və bu hadisənin təşkilində müğənni Alla Puqaçovanı, eləcə də müxalifətçilər Mixail Xodorkovskini və Leonid Nevzlini günahlandırıb.

Borodin Rusiya İstintaq Komitəsinə martın 9-da NTV kanalında yayımlanan "Yeni rus sensasiyaları" verilişindən sonra müraciət edib. Verilişdə onun Puqaçova haqqında səsləndirdiyi fikirlərin, həmçinin müğənninin dövlət təltiflərindən məhrum edilməsi, xarici agent kimi tanınması və cinayət məsuliyyətinə cəlb olunması təşəbbüslərinin mümkün hücumun səbəbi ola biləcəyi iddia olunub.

Məmur əminliyini ifadə edərək bildirib ki, istintaq bütün aidiyyəti şəxsləri məsuliyyətə cəlb edəcək. O, həmçinin cinayət işinin açılacağına ümid etdiyini və Alla Puqaçovanı ifadə vermək üçün gəlməyə çağırdığını qeyd edib.

Borodin müraciətində öz həyatından narahat olduğunu da vurğulayıb və bu barədə ədliyyə general-mayoru Andrey Strijova rəsmi ərizə verdiyini bildirib.

Qeyd edək ki, FTKL rəhbəri daha əvvəl də mədəniyyət nümayəndələrini, o cümlədən Liliya Axedjakovanı, Layma Vaykuleni, Semyon Slepakovu və Danila Kozlovskini ittiham edib. Bundan əlavə, o, Santa-Klausun xarici agent kimi tanınmasını təklif edib və bunu onun guya Şaxta babaya alternativ yaradaraq rus mədəniyyətini əvəz etməsi ilə əsaslandırıb.

Xatırladaq ki, Alla Puqaçovaya və Rusiyada xarici agent kimi tanınan Maksim Qalkinə məxsus olan Qryaz kəndindəki qala yerli sakinlərin narazılığına səbəb olub. Onlar hesab edirlər ki, bina kəndin ümumi görünüşünə uyğun gəlmir və sökülməlidir.

"Qalanı partlatmaq lazımdır, çünki o, ətraf mühitə uyğun deyil. Onlar burada özlərinə Kurşavel qurublar, amma bura kənddir", - bir kişi bildirib və mülkün vəziyyətinə və orada qara kifin əmələ gəlməsi ilə bağlı şayiələrə əhəmiyyət vermədiyini vurğulayıb.

## Messi "Barselona" formasını tapdaladı



İnter Mayami"nin ulduzu Lionel Messi "Atlanta Yunayted"lə matç öncəsi yaşanan anlarla diqqət çəkib.

Meydanda isinmə hərəkətləri edərkən azarkeşlərdən biri onun qarşısına "Barselona" forması atıb. Lakin Messi nə formaya reaksiya verib, nə də onu yerdən götürüb.

Uzun illər "Barselona"nın heyətində çıxış edən və klub tarixinin ən önəmli simalarından biri hesab olunan futbolçunun bu hərəkəti sosial şəbəkələrdə müzakirə mövzusuna çevrilib. Bəziləri bunu sadə bir təsadüf kimi qiymətləndirsə də, digərləri Messinin keçmiş klubuna olan münasibətini sual altına qoyub.

# Mahsun Kırmızıgülü hönkür-hönkür ağladan qadın...

**Mahsun Kırmızıgül ögey anasının məzarı başında göz yaşlarına boğulub.**

Türkiyə mediası xəbər verir ki, məşhur türk ifaçısı Mahsun Kırmızıgül xaricdə olduğu üçün ögey anası Zühre Bazencirin dəfn mərasiminə qatıla bilməyib. Türkiyəyə döndükdən sonra ilk dayanacaq kimi Bingölə gedən ifaçı ögey anasının məzarını ziyarət edib və orada göz yaşlarına boğulub.



Mahsun Kırmızıgül sosial media hesabında 'Annem Annem' mahnısı ilə birlikdə hisslərini belə ifadə edib:

"Türkiyəyə dönər-dönməz ilk dayanacağım Bingöl oldu. Anam Zühre Bazencirin təziyəsinə qatılmaq, onun ruhuna dualar oxumaq mənim üçün vəfa borcu idi. Orada ailəmin böyükləri və bacılarımla uzun vaxt söhbət edib, keçmişi xatırladıq" - deyə o bildirib.

Daha sonra vəfat edən anası Faike Arıkın məzarını ziyarət etmək üçün Diyarbıkıra gedən Mahsun Kırmızıgül "Zaman acını azaltmır, sadəcə insanı ona alışdırır. Anamın məzari başında diz çökdüm, torpağına toxundum. Sanki hələ də orada idi... Dualar oxudum, gözlərimi bağlayıb onu hiss etməyə çalışdım, amma geriyə sadəcə bir boşluq qaldı" - deyə qeyd edib.

Mahsun Kırmızıgül bildirib ki, anası üçün yazdığı "Annem Annem" mahnısını səhnədə oxuya bilmir və uzun müddət oxuya bilməyəcəyini düşünür. "Oxusam, dağılıram, oxusam, idarəmi itirirəm" - deyə o vurğulayıb.



**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov

Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31

Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# 1 maydan etibarən Gürcüstana qatarla gedib-gəlmək olacaq?

## Qeyd olunan iddialar rəsmi təsdiqini tapmadı; "Bakı-Tbilisi-Bakı dəmir yolu reysinin açılması ilə bağlı hələ qərar yoxdur"

**"Azərbaycan-Gürcüstan arasında quru nəqliyyatının, o cümlədən dəmiryolu nəqliyyatının bərpa olunması artıq xeyli müddətdir ki, müzakirə olunur". Bu haqda Milli Məclisin deputatı Vüqar Bayramov bildirib.**




O qeyd edib ki, tərəflərin təqdim etdiyi məlumatlara əsasən mayın 1-dən etibarən Bakıdan Tbilisiyə, eyni zamanda əksinə gedib-gəlmək mümkün olacaq: "Ümumiyyətlə, hər hansı rəsmi məlumat yayılırsa, adətən qarşı tərəflə razılaşdırılır. Mayın 1-dən dəmiryolu nəqliyyatının bərpa edilməsi məhz rəsmi məlumatdır. Bu, çox vacibdir. Azərbaycana ən çox gələn turistlər arasında gürcülər ilk üçlükdədir. Təbii ki, Azərbaycandan Gürcüstana gedən turistlərin sayı da kifayət qədər çoxdur. Gürcüstan vasitəsilə üçüncü ölkələrə gedən vətəndaşlarımızın sayı çoxdur. Dəmir yolu nəqliyyatından bərpa edilməsi daha ucuz qiymətə Gürcüstana, yaxud Gürcüstan üzərindən digər Avropa ölkələrinə səfər imkanları artır. Gözləntilər ondan ibartədir ki, artıq ay yarımdan sonra Azərbaycan vətəndaşları qatardan istifadə etməklə Tbilisiyə gedə biləcəklər".

ADY-nin Sərnişin daşımaları departamentinin rəisi Azər Fərəcov isə reysin mayın 1-dən açılması ilə bağlı Gürcüstan tərəfinin yaydığı məlumata münasibət bildirərkən deyib ki, hələ belə bir qərar yoxdur: "Bakı-Tbilisi-Bakı dəmir yolu reysinin açılması ilə bağlı hələ qərar yoxdur".

"Açılış barədə xəbər yoxdur. Qonşu tərəf bununla bağlı açıqlama verməyib. Biz də bununla bağlı məlumat gözləyirik", - Azər Fərəcov qeyd edib.

Reysin açılışına hazırlıq işlərinə gəlincə, ADY rəsmisi bildirib ki, hazırda hazırlıq işləri bütün istiqamətlər üzrə aparılır: "Yekun qərar olandan sonra, biz işlərimizi tamamlaya bilərik".

Xatırladaq ki, Gürcüstan və Azərbaycan paytaxtları arasında sərnişin qatarlarının hərəkəti koronavirus pandemiyası səbəbindən 2020-ci ilin martın 14-dən dayandırılıb. Bir müddət əvvəl Gürcüstan tərəfi qatarların mayın 1-dən fəaliyyətə başlayacağını açıqlayıb.

**KƏNAN**

# Sərdar Cəlaloğlu "Yeni Müsavat" tərəfindən niyə şantaj edilir?

**Dünən "Yeni Müsavat" qəzetinin saytında "Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlunun avtoqəza törətdiyi" haqda xəbər dərc olunub. Müəllif yazır ki, hadisə martın 15-də, səhər saatlarında Rəşid Behbudov küçəsində baş verib. İddia olunur ki, partiya sədri mopedi vurub və sürücüyə 50 manat pul verərək, hadisə yerindən sürətlə uzaqlaşıb.**



İlk olaraq onu qeyd edək ki, bu xəbər həqiqət olsa belə, burada qeyri-adi nəsə axtarmaq əbləhlikdir. Ən azı ona görə ki, heç bir qəza olayı "gəlirəm" demir və kimsə də bundan sığortalanmayıb. O cümlədən, "Yeni Müsavat"ın rəhbəri Rauf Arifoğlu da! Yəni başqaları kimi, sabah o da qəzaya düşə, yaxud düşürülə bilər. Ona görə "düşürülə bilər" yazırıq ki, bu gün qulluq etdiyi hakimiyyət vaxtilə onun evindən də "silah tapmışdı". Bu silah necə Rauf Arifoğluna məxsus idisə, bu gün Sərdar Cəlaloğlunun da "eyni həqiqətlə" qəza törətdiyini düşünmək olar.

Əlbəttə, bu xəbərin "Yeni Müsavat"a məxsus saytda işıq üzü görməsi heç də təəccüblü deyil. Çünki bu saytın "obyektivliyi" cəmiyyətdə hər kəsə bəllidir. Əvvəllər müxtəlif məmurlar arasında yalançı qalmaqallar düzüb-qoşan, bəzi hallarda onları "ringə" çıxaran bu qəzet və məxsus olduğu sayt, son vaxtlar daha çox şou xəbərlərə meyl etdiyindən, görünür, artıq siyasəti və siyasətçiləri də şouya cəlb etmək istəyir. Bu da anlaşılandır, yəqin, vaxtilə "məmurların savaşı"ndan pul qazanan R.Arufoğlunun indi də çörəyi şoudan çıxır...

Dəyərli oxucularımıza agah olsun deyə bildirək ki, ortada Səradar Cəlaloğlunun "törətdiyi qəza" faktı olmasa da, "qəza şousu" mövcuddur. Bir qədər də açıq desək, əlsində, bu qəzanın Sərdar Cəlaloğluna heç bir aidiyyəti yoxdur. Yox, həqiqətən də kimlərsə bu qəzanı S.Cəlaloğlu ilə bağlamağa çalışırsa, demək, bunun əvvəlcədən düşünülmüş olmaq ehtimalı da var.

İkinci məsələyə toxunmadan, hələllik heç bir ehtimala yer qoymayan birinci fakta - Sərdar Cəlaloğlunun bu qəza ilə hər hansı əlaqəsinin olmaması gerçəyinə aydınlıq gətirək.

Bəli, həqiqətən də qeyd olunan tarixdə - martın 15-də, səhər saatlarında Rəşid Behbudov küçəsində sonradan adını "Yeni Müsavat"dan öyrəndiyimiz sürücü Hüseyn Tanrıverdiyev idarə etdiyi mopedlə qəza törədib. Amma onun mopedini nə S.Cəlaloğlu vurub, nə də o, özünü ADP sədrinin avtomobilinə çırpıb. Hadisənin təfərrüatı bundan ibarətdir ki, moped sürücüsü yol hərəkəti qaydalarına zidd olaraq 3-cü zolaqdan sola dönüş edib. Bu zaman isə qırmızı işıqdan sola - Heydər Əliyev sarayı istiqamətində hərəkət edən Sərdar Cəlaloğlunun idarə etdiyi avtomobillə toqquşmamaq üçün özünü səki daşlarına çırpıb. Hadisə yol ayrıcında yerləşən müşahidə kamerasının altında baş verdiyindən, polislə köhnədən dostluq edən Rauf Airfoğlunun həmin görüntüləri əldə etməsi heç də çətin olmaz. Lakin, "Yeni Müsavat" ən azı qəzanın detallarını aydınlaşdırmaq əvəzinə, ortada heç bir fakt olmadan "Sərdar Cəlaloğlu qəza törətdi" sərlövhəli xəbər yayıb.

Ən maraqlısı isə odur ki, saytın əməkdaşı bu xəbəri yazmazdan əvvəl, ADP sədrinə zəng açaraq, özünü təqdim etmədən, yəni hansı qəzetin, yaxud saytın əməkdaşı olduğunu bildirmədən, "reket jurnalistlər"in üslubuna xas olaraq "redaksiyamıza sizin qəza törətdiyiniz haqda şikayət daxil olub, bunu dərc etsək, bütün saytlar bizə istinad edərək paylaşacaq...", - deyib. Partiya sədri isə müxbirə qəza törətmədiyini, əksinə, mopedi səki daşlarına dəyərək zədələnən sürücüyə kömək məqsədilə 50 manat verdiyini bildirib.

Həqiqətən də qəza baş verdikdən sonra avtomobilini qarşıda saxlayan Sərdar Cəlaloğlu sürücüyə kömək etmək üçün arxaya - hadisə yerinə qayıdıb. O, ilk olaraq moped sürücüsündən xəsarət alıb-almadığını soruşub. Gənc oğlan xəsarət almadığını dedikdən sonra ona ehtiyatlı olmağı tövsiyyə edən ADP sədri, bu zaman mopedinin yüngül zədələndiyini görərək, sırf insanlıq naminə ona 50 manat verib. Lakin həmin vaxt bir qrup cavan oğlanın moped sürücüsünə yaxınlaşaraq, onu adı ilə çağırmaları, üstəlik hadisənin canlı şahidi olmayan qadının S.Cəlaloğluna qarşı hücuma keçməsi, onu qəza törətməkdə ittiham etməsi və s. ADP sədrində şübhələr oyadıb...

Məhz bu səbəbdən yuxarıda qeyd etdik ki, qəza şosunun əvvəlcədən düşünülmüş olmaq ehtimalı var. Partiya sədrinə də elə gəlir ki, kimlərsə onun cəmiyyətdəki nüfuzunu zədələmək, yaxud başqa çirkin niyyətlərlə sözügedən moped sürücüsünün əli ilə qəza görüntüsü yaratmağa çalışıb. Amma görünür, ya sürücünün təcrübəsizliyi, ya da S.Cəlaloğlunun avtomobili diqqətli idarə etməsi səbəbindən, bu plan baş tutmayıb.

O da güman edilir ki, hadisə yerində olan gənclər, o cümlədən də məlum təxribatçı qadın əvvəlcədən orada, R.Arifoğlu demiş, "görəvləndiriliblər". Bu plan baş tutmadıqda isə, "Yeni Müsavat"ın xidmətindən yararlanmağa, yəni olmayan qəza haqda siyasi şou düzüb-qoşmağa məcbur olublar.

Hər halda, bütün bunlar bizim düşüncələrimiz, gəldiyimiz qənaətdir. "Yeni Müsavat"da bunun əksini düşünənlər varsa, lütfən bizimlə əlaqə saxlasınlar.

**"Hürriyyət"**

**P.S. Qeyd edək ki, "Yeni Müsavat"ın məlum yazısından sonra "Hürriyyət"in əməkdaşı moped sürücü Hüseyn Tanrıverdiyevlə əlaqə saxlaya bilib. Maraqlıdır ki, o, "mən "Yeni Müsavat"a o cür açıqlama verməmişəm", - deyə bildirib. "İndi zəng edib özləri ilə danışacam ki, niyə elə yazıblar?!", - əlavə edən Hüseyn onu da bildirib ki, kimsəyə Sərdar Cəlaloğlunun hadisə yerindən qaçdığı haqda fikir də söyləməyib, çünki belə bir fakt olmayıb.**

**P.P.S. Hər halda, bütün bunlardan sonra bizə əlavə söz deməyə ehtiyac qalmır. Güman edirik ki, dəyərli oxucularımız baş verənlərin fərqinə varacaqlar...**

Dünən ADP İdarə Heyətinin ölkə və beynəlxalaq aləmdə baş verən ictimai-siyasi hadisələrə dair növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları dünya ictimaiyyətinin diqqətlə izlədiyi Rusiya-Ukrayna müharibəsində atəşkəsə nail olunması üçün ABŞ-ın moderatorluğu ilə aparılan danışıqlar müzakirə olunub.



ADP bu dezinformasiyaları bölgədə sülhün yaranmasında maraqlı olmayan dairələrin fəaliyyətinin nəticəsi kimi dəyərləndirib

# Ermənistanla yeni savaş başlayır?

## Yaxud "yeni müharibə" xəbərlərini kimlər və nə məqsədlə yayır?

Son həftə ərzində aparılan danışıqlarda Ukraynanın atəşkəsə razı olmasına baxmayaraq, Rusiyanın bu məsələdə aydın bir mövqe ortaya qoymaması tənqid edilib. Qeyd edilib ki, Rusiyanın bu müharibədə işğalçı bir tərəf olduğu beynəlxalq ictimaiyyət tərəfindən, xüsusilə BMT qətnaməsi ilə tanınmalı və buna uyğun olaraq gərəkən addımlar atılmalıdır. Bu müharibənin sona çatdırılması beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Ukraynanın ərazi bütövlüyünün və suverenliyinin qorunub saxlanılmasına xidmət etməlidir. Əks halda Rusiyanın işğalçılıq siyasəti regional və beynəlxalq təhlükəsizlik üçün ciddi bir təhdid olaraq qalacaqdır.

İdarə Heyəti ötən həftə Suriyanın yeni hökuməti ilə kürdlərdən ibarət Suriya Demokratik Qüvvələri arasında imzalanan müqavilə ətrafında müzakirə aparıb. Müzakirələrdə müqaviləyə əsasən kürdlərin Suriyanın mərkəzi hakimiyyətinin təhlükəsizlik qüvvələrinə qoşulması təqdir edilib. Qeyd edilib ki, bu hadisə Suriyada vətəndaş sülhünə və əmin-amanlığa böyük töhfədir. Bu proseslərdə Türkiyənin oynadığı rol uğurlu bir siyasət kimi dəyərləndirilib və bu siyasətin Türkiyə tərəfindən Cənubi Qafqazda da reallaşdırılması arzuolunan hesab edilib.

İdarə Heyəti ötən həftə Azərbaycan rəsmi dairələri, o cümlədən Ermənistan rəsmi orqanları tərəfindən tərəflər arasında sülh müqaviləsinin mətninin tam razılaşdırılması ilə bağlı verilən açıqlamanı təqdir edib. İdarə Heyəti hesab edib ki, sülh müqaviləsi bölgənin təhlükəsizliyi naminə tez bir zamanda imzalanmalıdır. Müzakirələr zamanı istər Ermənistan, istərsə də Azərbaycan mediasında iki dövlət arasında müharibənin başlayacağı ilə bağlı yalançı materialların verilməsi tənqid edilib, bu hadisəni bölgədə sülhün yaranmasında maraqlı olmayan dairələrin fəaliyyətinin nəticəsi kimi dəyərləndirilib və bu tipli hərbi ritorikaya son qoyulmasının vacibliyi qeyd edilib.

İdarə Heyəti son zamanlar bir sıra Avropa və Qərb institutlarının həbsdə olan erməni əsilli separatçıların azadlığa buraxılması ilə bağlı Azərbaycan dövlətinə ünvanlanan çağırışları və təzyiqləri ətrafında da müzakirələr aparıb. Müzakirələrdə qeyd edilib ki, Azərbaycan dövlətinə və xalqına qarşı xəyanət etmiş, ağır və xüsusilə ağır hərbi cinayətlər törətmiş erməni əsilli Azərbaycan vətəndaşlarının məhkəməsi şəffaf şəkildə həyata keçirilir, Qərbin və Avropanın bu şəxslərin azadlığa buraxılması ilə bağlı Azərbaycana təzyiqləri qəbuledilməzdir, həmin şəxslər ən ağır qaydada məsuliyyətə cəlb olunmalıdır. Analoji hadisələr Avropada olduğu zaman hərbi cinayətlərdə, separatçılıqda ittiham edilənlər ağır qaydada cəzalandırıldığı halda, Azərbaycana münasibətdə isə bu hadisələrə ikili stardartlı mövqenin ortaya qoyulması beynəlxalq hüququn mahiyyətinə ziddir və siyasi motivlidir.

İdarə Heyəti son zamanlar ölkədə vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinə, siyasi fəallara və media təmsilçilərinə qarşı həyata keçirilən həbslərdən bir daha narahatçılığını ifadə edib, indiki beynəlxalq şəraitdə Azərbaycana qarşı Qərbin və Avropanın təzyiqlərini yumşaltmaq məqsədilə həbsdə olan siyasi məhbuslar azad olunmasının, ümumiyyətlə siyasi motivli həbslərdə həbs qətimkan tədbirinin tətbiqini daha yüngül qətimkan tədbirləri ilə əvəz edilməsinin vacibliyi qeyd edilib.

İdarə Heyəti həmçinin ötən həftə Müsavat Partiyasının üzvü Tofiq Yaqublunun 9 il müddətinə azadlıqdan məhrum edilməsini də pisləyib, bu həbsi siyasi motivli olduğunu bildirib, indiki beynəlxalq şərtlər daxilində ölkədə vətəndaş həmrəyliyi istiqamətində edilən cəhdlərə zərbə kimi dəyərləndirib.

İdarə Heyəti qarşıdan gələn Novruz və Ramazan bayramı ərəfəsində ölkə başçısını humanistlik göstərərək siyasi məhbusları da əhatə edən geniş əfv fərmanı imzalamağa çağırıb. Hesab edilib ki, bu addım ölkədə milli həmrəyliyin möhkəmləndirilməsinə böyük töhvə olardı.

İdarə Heyətində ABŞ-ın Yəməndə Husilərə qarşı keçirdiyi hərbi əməliyyatı müzakirə olunub, həmin əməliyyatlar zamanı dinc insanların da həlak olmasından narahatçılıq keçirən müzakirə iştirakçıları, ABŞ prezidenti D.Trampın Rusiya-Ukrayna cəbhəsində sülhə çağırış etdiyi bir zamanda Yəməndə dinc insanların tələfatı ilə nəticələnən hərbi əməliyyatlar keçirməsini dünyadakı münaqişələrə ABŞ-ın ikili standartdan yanaşmasının təzahürü kimi qiymətləndirib. Hesab edilib ki, ABŞ Yaxın Şərqdəki bu münaqişənin də sülh yolu ilə nizama salınmasına çalışmalıdır.

İdarə Heyəti son zamanlar Azərbaycan-Rusiya münasibətlərində olan soyuq münasibətlərin normal məcraya yönləndirilməsi istiqamətində Rusiya tərəfindən atılan addımlar ətrafında da müzakirə aparıb. Müzakirələrdə Rusiya rəsmi şəxslərinin Azərbaycana səfəri iki dövlət arasında yaranmış soyuq münasibətlərin yoluna qoyulması istiqamətində edilən müsbət cəhd kimi dəyərləndirilib. Eyni zamanda qeyd edilib ki, Türkiyə və Pakistan kimi strateji müttəfiqlərimizin olduğu halda, Rusiya ilə yalnız qarşılıqlı-faydalı əməkdaşlığın tərəfdarıyıq, bundan uzağa gedən əməkdaşlıq Azərbaycanın dövlət maraqlarına uyğun deyil.

İdarə Heyəti sonda qarşıdan gələn Novruz Bayramı münasibəti ilə Azərbaycan xalqına təbrik ünvanlayıb. Novruz tonqallarının artıq Azərbaycanın hər bir guşəsində yandırılması şükranlıqla qeyd edilib, ölkəmizə əmin-amanlıq, hər bir ailəyə rifah və xoşbəxtlik arzu edilib.

**Hazırladı: KƏNAN**

# Rusiya atəşkəs üçün şərtlərini açıqladı...

## "Kreml Ukraynadan NATO üzvü olmayacağı haqda "dəmir təminat" tələb edəcək"

**Rusiya Ukrayna ilə bağlı istənilən sülh sazişində bu ölkənin NATO üzvü olmayacağı və bitərəf statusa malik olacağına dair "dəmir təminat" tələb edəcək.**

"Reuters"in məlumatında belə deyilir.

"Reuters" Rusiya Xarici İşlər Nazirliyinin son məlumatını xatırladaraq qeyd edib ki, Kreml öz əvvəlki tələblərindən geri çəkilmir: "Məsələn,



Rusiya Xarici İşlər nazirinin müavini Aleksandr Qruşko bəyan edib ki, Ukrayna ilə bağlı istənilən uzunmüddətli sülh müqaviləsi Moskvanın tələblərinə cavab verməlidir. O deyib: "Biz təhlükəsizliyə dair "dəmir zəmanətlərin" bu sazişin bir hissəsi olmasını tələb edəcəyik. Bu zəmanətlərin isə bir hissəsi Ukraynanın neytral statusu, NATO ölkələrinin onu alyansa qəbul etməkdən imtinası olmalıdır".

Kreml həmçinin NATO sülhməramlılarının Ukraynada yerləşdirilməsinin qəti əleyhinədir. Bunu da Qruşko əlavə edib".

Xatırladaq ki, Böyük Britaniya və Fransa Ukraynada istənilən atəşkəsə nəzarət etmək üçün sülhməramlı qüvvələr göndərməyə hazır olduqlarını bəyan ediblər. Həttа uzaq Avstraliyanın Baş naziri Entoni Albanese də ölkəsinin bununla bağlı müraciətlərə açıq olduğunu deyib.

"Reuters" Qruşkodan daha bir sitat gətirərək, Kremlin Avropanı hədələdiyini önə çəkir: "NATO kontingentinin Ukrayna ərazisinə hansı ad altında yerləşdiriləcəyinin fərqi yoxdur: istər Avropa İttifaqı, istər NATO, istərsə də milli miqyasda. Əgər onlar orada peyda olsalar, bu o deməkdir ki, onlar münaqişə zonasında yerləşdiriləcək və münaqişə tərəfi olacaqlar. Bu zaman münaqişə tərəfi kimi, bundan irəli gələn bütün nəticələrlə üzləşəcəklər".

Bununla belə, Qruşkonun sözlərinə görə, münaqişədən sonra silahsız müşahidəçilərin yerləşdirilməsindən yalnız sülh sazişi hazırlandıqdan sonra danışmaq mümkün olacaq.

Bundan öncə Fransa Prezidenti Emmanuel Makron deyib ki, Ukraynada sülhməramlı qoşunların yerləşdirilməsi məsələsi Moskvanın deyil, Kiyevin qərarıdır.

Qruşko buna cavab olaraq bildirib ki, Kiyevin avropalı müttəfiqləri başa düşməlidirlər ki, yalnız Ukraynanın NATO-ya üzvlüyünün istisna edilməsi və onun ərazisində xarici hərbi kontingentlərin yerləşdirilməsi imkanının istisna edilməsi region üçün müsbət nəticələ verə bilər. Digər variantlar işləməyəcək.

Onun dediyinə görə, yalnız bu zaman Ukraynanın və daha geniş mənada bütün regionun təhlükəsizliyi təmin olunacaq, "çünki münaqişənin əsas səbəblərindən biri aradan qaldırılacaq".

# Sabiq nazirdən sülh sazişi haqda açıqlama

**"Biz hazırda Azərbaycan və Ermənistan arasında çərçivə sənədinin razılaşdırılmasından danışırıq. Ermənistan tərəfi isə bilərəkdən bu sənədin mahiyyətini şişirdir. Çünki məqsədləri digər məsələləri arxa plana keçirməkdir".**

Bu sözləri "Reytinq"ə Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov deyib.

Onun sözlərinə görə, öncə nəzərə almaq lazımdır ki, bəhs edilən sənəd Azərbaycan tərəfinin Ermənistana təklifi əsasında hazırlanıb. Yəni Azərbaycanın irəli sürdüyü beş prinsip əsasında bu prosesə start verilib. Üstəlik, bunlar beynəlxalq hüququ və BMT prinsiplərini özündə ehtiva edir.

Keçmiş nazir bildirib ki, həm Azərbaycanda, həm də Ermənistanda bir çox insanlar sənədin mahiyyətini fərqli formada təqdim edir, hətta bunu sülh sazişi kimi qələmə verənlər də var: "Amma indiki halda biz ilkin və ya çərçivə sənədindən bəhs edirik. Sülh sazişi isə son mərhələdə əldə ediləcək və ya imzalanacaq sənəd ola bilər".

T. Zülfüqarov qeyd edib ki, çərçivə sənədinin mahiyyəti bəyanata yaxın olsa da, bəzi şəxslər bilərəkdən onu şişirdir.



## Tofiq Zülfüqarov: "Öncə Zəngəzur dəhlizi məsələsi həllini tapmalıdır..."

"Məsələn, tərəflər qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü tanımalıdır. Hazırda sərhədlər müəyyən edilibmi? Və yaxud Zəngəzur dəhlizi məsələsi həllini tapmalıdır. Tapıbmı? Eyni zamanda təhlükəsilik məsələləri. Təzminat məsələləri də var. Bəzi xəbərlərə görə, Ermənistan tərəfi müəyyən sənədləri geri çəkməyib. Bunlar həyata keçirilməlidir. Çərçivə sənədi bu baxımdan bir sıra məsələlərin həlli üçün çərçivə yaradır. Qısası, ilkin və yekun sənəd var. İndi biz ilkin sənəddən bəhs edirik, yekun sənəd isə sülh sazişi olmalıdır. Yəni indi bizim müzakirə etdiyimiz çərçivə sənədidir, sülh sazişi deyil. Sülh sazişi üçün hələ çox iş görülməlidir. Bunu bilməyənlərə məsləhət görürəm ki, diplomatiya lüğətinə baxsınlar. Çünki bu məsələlər orada qeyd edilib və bu nəzəriyyə əsasında işlər görülür",- deyə sabiq nazir əlavə edib.

T. Zülfüqarov deyib ki, Ermənistan bilərəkdən ilkin sənədin mahiyyətini qabardır: "Çünki düşünürlər ki, bu yolla digər mövzuları gündəmdən çıxarırlar. Guya bununla məsələ bitdi. Əsas məsələlər sırasında sərhədlərin müəyyən edilməsi, dəhlizin açılması, təhlükəsizlik, təzminat kimi məsələlər var. Eyni zamanda "münaqişənin siyasi məsuliyyətini kim daşıyır", - məsələsi də mövcuddur. Sözsüz ki, cinayət törədən insanların məsuliyyəti də var. Bunlar həllini tapmalıdır. Bunun üçün də çərçivə sənədi vacibdir".

Müsahibimiz diqqətə çatdırıb ki, əslində çərçivə sənədinin razılaşdırılması hər iki ölkənin Xarici İşlər nazirlikləri tərəfindən bəyanatla yekunlaşdırıla bilər: "Yəni tərəflər qeyd edirlər ki, ilkin sənədi razılaşdırıblar və oradakı prinsiplər əsasında işin davam etdirilməsinə dair siyasi iradə mövcuddur. Bunun üçün Vaşinqtona və ya Moskvaya ehtiyac yoxdur. Ümumiyyətlə, bizim işimiz, vasitəçilər olmadan, Ermənistanla qarşı-qarşıya oturub məsələləri həll etməkdir".

**Hazırladı: RƏŞAD**

# Tramp İranı hədələdi

## "Nəticələri çox ağır olacaq..."

**ABŞ Prezidenti Donald Tramp husilərə görə İranı hədələyib. Bu barədə Tramp "Truth Social" hesabında yazıb.**

Onun sözlərinə görə, "husilər tərəfindən atılan hər bir güllə bu andan etibarən İranın silahlarından və rəhbərliyindən atılan güllə kimi qiymətləndiriləcək".

"Heç kim aldanmasın! Yəməndə yaşayan, Yəmən xalqının nifrət etdiyi husilər, məhbuslar və quldurların həyata keçirdiyi yüzlərlə hücumun hamısı İrandan qaynaqlanır. Husilərin növbəti hücumu və ya cavabı böyük güclə qarşılaşacaq, bu qüvvənin orada dayanacağına zəmanət yoxdur. Husilərin atdığı hər bir güllə bu andan etibarən İranın silahlarından və rəhbərliyindən atılan güllə kimi qiymətləndiriləcək", - o qeyd edib.

Tramp vurğulayıb ki, buna görə İran məsuliyyət daşıyacaq, bunun bədəlini ödəyəcək: "Bunun nəticələri çox ağır olacaq!"



# "Narkotik ticarətinin qarşısını daha mütərəqqi yolla almaq lazımdır"

## Namizəd Səfərov: "Hətta güllələnmə cəzası da versən, narkotikin kökü kəsilməyəcək"

Gürcüstan narkotik ticarətinin qarşısını almağı qarşısına məqsəd qoyub və bunun üçün mübarizə üsullarını da kəskinləşdirir. Belə ki, hökumət narkotik cinayətləri, o cümlədən çətənə və marixuana ilə bağlı cinayətlərə görə cəzaları sərtləşdirməyi planlaşdırır.

Artıq elan olunub ki, narkomaniyaya qarşı mübarizə və sağlam həyat tərzinin təbliği gələcək nəsillərin sağ qalması naminə xüsusi milli prioritet olacaq. Bu baxımdan da, Gürcüstan bir çox müsbət istiqamətlərdə, hətta qonşu ölkələrə də nümunə olacaq addımlar atmağı planlaşdırır. Şübhəsiz, bütün bunlar narkomaniyadan və narkotiklərin qanunsuz dövriyyəsindən əziyyət çəkən Azərbaycan üçün də nümunə ola bilər. Elə bu barədə tanınmımş hüquqşünas Namizəd Səfərovun mövqeyini öyrəndik.



"Hansısa cinayətkar qrup korrupsioner dövlət orqanları ilə əlaqədə olmasa, narkotiki ölkəyə keçirmək mümkün deyil"

***- Namizəd bəy, Gürcüstanda narkotiklərin satışı ilə bağlı cəzalar sərtləşdirilir. Belə ki, parlamentdə təqdim olunan 8 qanun layihəsində narkotacirlərə 20 il və ya ömürlük həbs cəzasının verilməsi təklif olunub. Nəzərə alsaq ki, Azərbaycan da narkoticarətdən əziyyət çəkən ölkədir, analoji qanunun bizdə də qəbul edilməsini məqbul hesab edirsinizmi?***

- Öncə onu deyim ki, cəzanın ağırlaşdırılması heç də o bəla ilə mübarizə üsulu deyil. Bu, hüququn ümumi prinsipidir. Mübarizənin digər mütərəqqi üsulları, prinsipləri var ki, cinayətin qarşısının alınması üçün o üsullardan istifadə edirlər. Yəni cinayətin törənməsinin əsas səbəblərini araşdırır, onun qarşısını alırlar. Yoxsa istəyirsən, orada güllələnmə qoy, narkotikin kökü kəsilməyəcək. Sizə deyim ki, daha da artacaq. Bandalar daha texniki işləyəcəklər.

Əslinə qalanda, cəzanın ağırlaşdırılması heç də bəlanın kökünün kəsilməsi üçün əsas deyil. Ona görə də çalışmaq lazımdır ki, daha demokratik formada onun qarşısı alınsın. Məsələn, korrupsioner dövlət orqanlarının bu məsələdə iştirakı var. Bizdə, görürsən, tez-tez xaricdən narkotik gətirirlər, özü də tonlarla. Bunu sadə vətəndaş keçirə bilməz axı. Müəyyən vətəndaş, yaxud hansısa cinayətkar qrup korrupsioner dövlət orqanları ilə əlaqədə olmasa, narkotiki ölkəyə keçirmək mümkün deyil. Keçirmək olar, 100 qram, maksimum 1 kiloqram. Amma görürsən, bəzən 4 kiloqram tutulur, bəzən 4 ton. Gürcüstan ərazisindən keçirilmişdi. İrandan keçən tutulur... Yəni mən sizi əmin edirəm ki, burada daha çox siyasi iradə lazımdır.

Ölkədə narkotikin qarşısını almaq üçün hakimiyyət başqa mütərəqqi tədbirlər də görməlidir. İş yerləri açmalıdır, insanları işlə təmin etməlidir. İnsanlar qalır işsiz, amma ailəsini dolandırmaq məcburiyyətindədir. Bu yandan da kimsə təklif edir ki, gəl bizə qoşul, bu işləri görək və onu yükləyirlər. Ona görə də vətəndaş məcbur qalır, maddi çətinliklər qarşısında bu yola gedir.

## "Narkomaniyanın qarşısını onu törədən səbəbləri aradan qaldıraraq almaq lazımdır"

Ola bilsin ki, Gürcüstanda ictimai vəziyyət bizimkindən biraz fərqlidir. Ola bilsin ki, orada dövlətin cinayət mafiyası ilə əlaqəsi o qədər də güclü deyil, onlar belə fikirləşirlər. Amma mən belə fikirləşirəm ki, Daxili İşlər Nazirliyi, ölkənin siyasi hakimiyyəti istəsə, narkotikin qarşısını ala bilər. Bunun üçün də əsas cəmiyyəti liberallaşdırmaq, yəni azadlıqları artırmaq lazımdır. Bunu etmədən hər hansı bir bəlanın qarşısını almaq mümkün deyil.

***- Bir müddət əvvəl Gürcüstan marixuananın istifadəsini leqallaşdırmaqla bağlı qərar qəbul etdi. İndi isə çətənə və marixuana ilə bağlı cəzaları sərtləşdirir. Belə bir vəziyyətdə, Azərbaycanda marixuananın leqallaşdırılması ilə bağlı təklif reallaşarsa, bu nə dərəcədə effekt verər?***

- Təkcə Gürcüstanda deyil, Avropanın bir sıra ən demokratik ölkələrində təkcə marixuana yox, elə digər sərt narkotik maddələrin də, heroinin də şəxsi istifadəsi leqallaşıb. Hətta dövlət iynələrin vurulmasına yardım da edir, və yaxud bunu tibbi müəssisələrdə həyata keçirir. Söhbət hansı ölkələrdən gedir-liberal ölkələrdən. Bunlar insanın dövlətin siyasətinin əsasına çevrildiyi ölkələrdir. Belə olan halda həmn arkotiklərdən istifadə edənlərin sayı azalır, həm də orada insanlar narkotiki bizimkilər kimi zirzmilərdə, orada-burada istifadə etmirlər, dövlət onlar üçün yer ayırır. Mən hesab edirəm ki, narkotikdən istifadə etmək bir xəstəlikdir - asılılıq xəstəliyi. Başqa xəstəliklər olduğu kimi bu da asılılıq xəstəliyidir, insanın iradəsinin zəifliyidir. Bunun qarşısını onu törədən səbəbləri aradan qaldıraraq almaq lazımdır. Mən demirəm ki, bizdə də narkotiki leqallaşdırmaq lazımdır ki, kim harda gəldi istifadə etsin. Əgər narkotikin istifadəsinə icazə verirlərsə, istər-istəməz narkotikin yayılması da baş alıb gedir. Adam özüm çəkirəm deyə bəhanə gətirib narkotik daşıyacaq. Hər halda dərindən düşünmək lazımdır. Hüquqi əsaslandırma gərəkdir.

***- Yeri gəlmişkən, Gürcüstanda narkotik yolu ilə əldə olunan daşınar və daşınmaz əmlakın üzərinə həbs qoyulması da gündəmdədir. Azərbaycan üçün də belə bir cəzanın tətbiqi aktual ola bilərmi?***

- Mən hesab edirəm ki, təkcə narkotikə görə yox, bütün cinayət yoları ilə - korrupsiya, rüşvətxorluq, dövlət əmlakının mənimsənilməsi, oğurlqu və s. yolla əmlak əldə etmisənsə, istənilən halda o əmlakın oğuluq olduğu sübut olunub, sənin əlindən alınmalıdır. Bu absurd çıxır ki, narkotik satmaqla əmlak əldə edənin əmlakını müsadirə edək, korrupsiya, oğurluq edən, dövlət əmlakını mənimsəyən, dövlətin milyardlarını mənimsəyən şəxslərin yığdıqları əmlak onların özünündür. Bu, ola bilməz. Cinayət cinayətdir. Mən düşünmürəm ki, narkotik satışı ilə kimlərsə milyarder ola bilər. Yox, heç Allah da buna imkan verməz. Narkotik satışı ilə ancaq özünü, ailəsini, yaxınlarını batıra bilərsən, məhv edə bilərsən. Kim bunu edirsə həm Allah qarşısında, həm cəmiyyət qarşısında lənətlənən şəxs olub.

Ona görə, mənim fikrim bundan ibarətdir ki, təkcə narkotik satışı ilə yox, istənilən cinayət yolu ilə əldə olunan əmlak dövlətin əliylə müsadirə olunmalıdır.

***- Görünür, bu qanun kiçik çaplı narkotik alverçiləri ilə bağlı deyil, külli miqdarda narkotik kapitalı ilə əmlak sahibi olanlara aiddir...***

- Ola bilsin. Gürcüstan hakimiyyətndə baş verən son siyasi məsələləri nəzərə almasaq, Gürcüstan dövləti güclü korrupsiyaya qurşanmış, korrupsiya bataqlığında dağılan dövlət deyil. Ona görə, orada atılan addım hüquqşünaslarla ölçülüb-biçilir, ictimaiyyətlə-cəmiyyətlə əlaqələndirilir, məsləhət edilir. İctimaiyyətin fikri də nəzərə alınr ki, bu addımı atırlar. Məni daha çox öz ölkəmiz maraqlandırır. Biz xarici ölkələrə, qonşularımıza, elə Gürcüstana həsədlə baxmışıq ki, onlarda mütərəqqi qanun normaları qəbul olunur, demokratik inkişaf var, insanların orta əməkhaqqısı da bizdən yüksəkdir, yaşayış minimumu bizdən yüksəkdir. Yəni o cəmiyyət kimi siyasi iradə ilə idarə olunur, burada mütləq müsbət nəticələr əldə olunur. Bunu vurğulmaq istəyirəm. O cəmiyyətdə hakimiyyət istəyirsə ki, cəmiyyəti düzəltsin, orada mütləq inkişaf gedir. Elmi-texniki tərəqqi o qədər inkişaf edib ki, dünya praktikası var, yeni metodlar var. Dövlətin qanunları olmalıdır, kim də gəlsə o qanunlara əməl etməlidir. Bizdə icra hakimiyyəti səhər evdən çıxır, düşünür ki, görüm bu gün nə qədər oğurluq edəcəyəm. O, fikirlərşmir ki, mənə böyük bir rayonun idarəçiliyini həvalə ediblər. Nazir fikirləşmir ki, gedib çatışmayan işləri görməliyəm. O, gedir oğurlamağa. Məqsəd başqadır. Gərək insanın məqsədi o ola ki, mən nəyə gedirəm, mənim cəmiyyət qarşısında hansı borcum, hansı vəzifələrim var?

***- Bir halda ki, müsahibəni Gürcüstanda təklif olunan qanun layihəsi üzərində qurduq, bununla bağlı bir sual da verim. Qonşu ölkə narkoloji müayinədən keçməyən şəxsləri sürücülük hüququndan məhrum etməyi düşünür. Nəzərə alsaq ki, bizdə də son vaxtlar narkotikin təsiri altında avtomobil idarə edənlərin sayı sürətlə artır, analoji addımı bizdə də atmaq olarmı?***

- Bəli, mən də çox rast gəlirəm ki, narkotik təsiri altında avtomobil idarə etmək çox ağır nəticələrə səbəb olur. Spirtli içki içənlər az da olsa avtomobil idarə edə bilirlər, amma narkotik qəbul edənlər bunu edə bilmirlər. Bu, çox təhlükəlidir. Düşünürəm ki, bu addımlar məqsədəmüvafiqdir. Amma hamını yoxlamaq olmur. Nəzarət etmək çətindir ki, kim narkotik istifadə edib, kim yox. Spirtli içkini yoxlamaq asandır, amma narkoloji müayinə üçün gərək hər adamı aparasan narkoloji dispanserə, yoxlayasan ki, qanında narkotik var, ya yox.

**Hazırladı: İ. SABİRQIZI**



Eldəniz QULİYEV
Kinodramaturq

# SOS!

## Və ya Azərbaycan kinosunun ağrıları



**Təcili tədbir görülməsə faciə qaçılmazdır!..**

Söhbət sıxılıb "to be, o not to be?" arasında qalan "Azərbaycanfilm" kinostudiyasından gedir... O kinostudiyadan ki, xalqımıza saysız-hesabsız sevilən filmlər və dəyərli sənətkarlar bəxş edib. O kinostudiyadan ki, neçə onilliklərdir milli-mənəvi və əxlaqi dəyərlərin flaqmanı kimi şərəfli missiya daşıyıb.

Və nəhayət, o kinostudiyadan ki, bu gün az qala aqoniya vəziyyətində - son günlərini yaşayır...

Ancaq bu barədə bir qədər sonra. Yəni kinomuzun bugünkü durumuna ötəri də olsa nəzər salmadan, təhlükənin haradan qaynaqlandığını görmək, anlamaq mümkün deyil.

Azərbaycan kinosu, yaxud milli Azərbaycan kino sənəti dedikdə, bizlər bəzən hissə qapılırıq. Çünki bu gün, əslində, kinomuzda nə millilikdən əsər-əlamət var, nə də ki, sənətdən...

On doqquzuncu yüzilliyin ən sonunda Lümer qardaşları adicə foto şəkilləri hərəkətə gətirdilər və adını "sinematoqrafiya" qoydular ("hərəkət edən şəkillər"). Üstündən 15-20 il keçmiş, dahi Çarli Çaplin (Devid Qriffit, Sergey Eyzenşteyin və digərləri), o şəkillərə can verdilər, ruh verdilər... Bu minvalla, belə demək mümkünsə, Lümerlər şəkillərə hərəkət, Çaplin isə bərəkət bəxş elədi. Budur, düz 131 ildir ki, sirli-sehrli bu möcüzə, rəssamlıq, heykəltaraşlıq, teatr və digər otruşmuş incəsənət növləri kimi, özünə məxsus sənət pasportu ilə yaşamaqdadır.

Qəribə də olsa, Azərbaycanda kino istehsalı tarixi əksər Avropa ölkələrindən əvvələ təsadüf edir. Düzdür, bu, özgə söhbətin mövzusudur, ancaq fakt budur ki, hələ də bir çox ölkələrin öz kinostudiyaları yoxdur, onlar kinoya olan tələbatlarını idxal etdikləri xarici filmlərin hesabına ödəyirlər.

Bizim ölkənin isə kinosu olub, var və bu kinonun tarixi 1898-ci ildən başlayır. Əlbəttə, bu, qürurverici bir faktdır.

Bunları deməkdə məqsədim budur ki, biz öz milli kinomuzu qorumalıyıq, onun büdrəməsinə, yox olmasına və Allah eləməmiş, məhv olmasına imkan verməməliyik!

Ancaq nə yazıq, təəssüf və səd heyif ki, bu gün milli kino sənətimizi hifz etməkdən daha çox, ONU sıxıb-sıxcalayır, son işartılarını da söndürmək istəyənlər var. Yəni - çevir tatı, vur tatı,- kino sənayesinin inkişafından danışa-danışa, unuduruq ki, bu gün inkişafadan yox, BƏRPADAN söhbət getməlidir. Quru çərhovuza su buraxmadan ora baş vurub çimmək absurd deyilmi?.. Artıq cin şüşədən çıxıb, yəni nə mümkündürsə əzilib-sınıb-çiliklənib...

Kino industriyası əsasən iki ayağı üstündə bərqərar olmalıdır - kino istehsalı və kinoprakatı (satışı). Diqqət yetirin, keçən əsrin 90-cı illərində, siyasi formasiyaların dəyişdiyi zaman kəsiyində bu "ayaqların" hər ikisini zədələdilər, qırdılar. Qəsdən. Kino istehsalı obyektiv və daha çox subyektiv səbəblərdən donduruldu, kino prakat və onun balansında olan kinoteatrlar, əmlaklar isə satıldı, dağıdıldı,- kimlərinsə nəfsinə qurban getdi... Yəqin çoxlarının yadındadır, o vaxt ölkənin bütün kino-teatrları şəhərlərin mərkəzində yerləşirdi. Bakıda və böyük rayonlarda ən prestijli və ən qələbəlik yerlərdə idi. Hazırda həmin kino-teatrları ticarət mərkəzlərinə, iri marketlərə, iaşə obyektlərinə - yeməkxanalara, çayxanalara və digər "xanalara" cevriblər...

Buna bənzər vəziyyət, eynilə milli kino camiəsində də baş verməkdədir. Sanki gözəgörünməz bir əlin (ya barmağın) işarəsiylə, kinematoqrafiya adlandırdığımız görüntü sənətinin "yüyəni"... peşəkarlardan alınıb həvəskarlara - daha çox, çax-çux həvəskarlarına - peşkəş edilib. Yoxsa zaman-zaman təmtəraqlı və qlamur "premyaraları" keçirilən səviyyəsiz kinofilmlərin: "super!", "molodes!", "şedevr!" və s. bu kimi epitetlərlə möhürlənməsini necə izah etmək olar?!

Nə sirdisə, "milli" kino və Tv serialları məhsullarında mövzu bəsitliyi, obrazların, süjet xətti, konfliktlərin primitiv təqdimatı və açılışı, kino (eləcə də televiziya) estetikasına tamamən yad nümunələr, ideyasızlıq, o cümlədən bəsit traktovkadan doğan antisanitar kino epizodları, kobud montaj qüsurları, bayağı musiqi seçimləri, süni aktyor oyunu, işıq və rənglərin harmoniyasından anlayışı olmayan səriştəsiz operator, xaotik rejissor işi və s. və i .a. aşkar pintiliklər ört-basdır edilərək "kadr arxasında" qalır. Qalır, ancaq öz "işini" də görür - zövqümüzü korlayır, ruhumuzu incidir, tamaşaçını düz yoldan sapdırır...

Görünür, kinomuzun mövcud vəziyyəti görüntü sənəti industriyasına cavabdeh olan şəxsləri, qurumları (başda Mədəniyyət nazirliyi olmaqla) qane edir. Belə hiss yaranır ki, Mədəniyyət Nazirliyi mədəniyyətin, ələlxüsus, kino sənətinin mənasız bir şey olduğu qənaətindədir. Nəhayyət və ən başlıcası: görünür, bu hakimiyyətə zövqü korlanmış, inellektsiz, etik və estetik baxışlardan məhrum və dünyaduyumu bulanlıq, daha çox kütlə instinktiylə mövcud olan tamaşaçı lazımdır...

> Nə sirdisə, "milli" kino və Tv serialları məhsullarında mövzu bəsitliyi, obrazların, süjet xətti, konfliktlərin primitiv təqdimatı və açılışı, kino (eləcə də televiziya) estetikasına tamamən yad nümunələr, ideyasızlıq, o cümlədən bəsit traktovkadan doğan antisanitar kino epizodları, kobud montaj qüsurları, bayağı musiqi seçimləri, süni aktyor oyunu, işıq və rənglərin harmoniyasından anlayışı olmayan səriştəsiz operator, xaotik rejissor işi və s. və i .a.

Fikirimcə, bu, çox təhlükəli məsələ olmaqla yanaşı, toplumun genetik koduna, qan nizamına yönəli zərərli (hətta zəhərli) müdaxilə kimi qiymətləndirilməlidir.

Amma, deyirəm, yaxşı ki, bütün bunlara rəğmən, kinonu həyatının mənası sayan istedadlı, bacarıqlı gənclərimiz də az deyillər. Onlar, sözün əsl mənasında kinonun fədailəridir. Şəxsən mən ümid edirəm ki, bədii, sənədli kino sahəsini işğal altında saxlayan qeyri-peşəkarlıq müvəqqəti bir haldır və nə vaxtsa keçib gedəcək. Çünki heç bir nəhəng qaranlıq və hər hansı qatı zülmət bapbalaca bir şam işığını boğub öldürmək gücündə deyil!..

İndi isə qayıdaq "Azərbaycanfilm" kinostudiyasına... Bu kinostudiya, istəsək də, istəməsək də, artıq bir sənət məbədinə çevrilib.. Neçə-neçə yaradıcı nəsillər üçün milli kino sənətinin abidəsi, beşiyi, müqəddəs ocağı sayılır...

30-35 il əvvəl olduğu kimi, bu gün yenə də kimlərsə doğma studiyamızı kimlərəsə satmaq istəyirlər. Bu dəfə ortaya "Sinema-park" adlı bir biznes layihəsi atıblar və bunun guya, kino sənayesinin inkişafına xidmət edəcəyini bildirirlər. Əvvəla, deyim ki, bu layihə plagiatdır, yəni illər öncə belə bir proyekt vardı, müəllifi də rəhmətlik Rüstəm İbrahimbəyov idi. Məqsədi də Azərbaycan kino sənayesinin müstəqillik əldə etməsi, inkişafı, maliyyə baxımından özünü təmin etməsi, "Azərbaycanfilm" kinostudiyasını, eləcə



də yerli filmlərin prokat sistemini bərpa edib qorumaq idi. Rüstəm müəllim bu projeni həyata keçirmək üçün şəhər kənarında boş torpaq sahəsi də almışdı. Hazırda təqdim olunan "Sinema-park" layihəsi isə "Azərbaycanfilm" kinostudiyasının binasını və əmlakını bölüb-parçalamaq, əcnəbi investorlara icarəyə vermək və orada gəlir gətirən müxalifət obyektlər və s. açmağı ehtiva edir. Aydındır ki, bu plan, özündə rejissorluqla maklerliyin simbiozunu yaratmış bir qrup işbazların komformist maraqlarına xidmət məqsədi güdür. Belə çıxır ki, istənilən tarixi abidəni, misal üçün, Qız qalasını, ya Şirvanşahlar sarayını hissə-hissə bölüb içərisində "Abidə-park"dan- zaddan cürbəcür "şeylər" yaratmaq olar, - təki gəlir gətirsin, təki mənfəət olsun.(???)

Müxtəsəri, Rüstəm İbrahimbəyovun ovaxtki layihəsi kinomuzu diriltmək üçün idi, indiki plagiat "Sinema-park" isə kinomuzu məhv etmək üçündür.

Buna imkan vermək olarmı? Əlbəttə ki, yox! Bizlər "Azərbaycanfilm"imizi qorumalıyıq, hər daşında, hər dəhlizində, hər otağında və hər pavilyonunda şirin sənət xatirələri yaşadan doğma studiyamızı ölümdən xilas etməliyik! Bu bizim vəzifəmiz, borcumuz və ALIN YAZImızdır!

Bəli, yeganə istehsalat bazası sayılan kinostudiyanın uğrunda mübarizə aparılmalıdır. "Azərbaycanfilm"-in yox olması Azərbaycan kino sənətinin, müvafiq olaraq, görüntü kimliyimizin məhvinə aparan yoldur. Yox-yox, əlbəttə ki, kino sağ qalacaq, yaşayacaq, müxtəlif filmlər də çəkiləcək, amma... nə olsun?- əgər dişin "nervisi" çıxarılıbsa, çeynəmək də, qida qəbul etmək də olur, yəni diş öz yerində durur... amma eyni zamanda o diş həm də yoxdur - canı, ruhu yoxdur!..

Nə etməli? Məncə, bu gün ilk növbədə, Pespublika kinoprakat sisteminin yenidən qurulması təmin edilməlidir, "keçi qiymətinə" satılmış kino-teatrların əsarətdən xilas yolları aranmalıdır. Kino sənayesinin doktrinası yazılmalı, dəqiq fəaliyyət planı müəyyənləşdirilməli və bütün bunların normativ-hüququ bazası yaradılmalıdır. Bunları etmədən, hər hansı inkişafdan-filandan danışmaq yersizdir... Üçgündən bir ağızdolusu, özü də ciddi-ciddi, ağıllı-ağıllı kino sənayesinin inkişafı mövzusunda "quş qoymaq" tədbirləri düzənləmək, yumşaq desək, patetikadan başqa bir şey deyil... Qaşlarını çatıb özünü ağıllı və müdrik göstərmək, heç də adamın ağıllı və müdrik olduğuna dəlalət etmir...

**P.S. Məşhur Baron Münhanzenin sözü olmasın: "Gülümsəyin cənablar, gülümsəyin! Dünyanın bütün səfehlikləri həmişə ağıllı üz ifadəsiylə hə-**

# "Sədərək Yusif" evindən oğurluq edən qulluqçuya 10 il iş verdirib

## Üstəlik, iş adamına dəyən zərər tam şəkildə ödənilsə də, məhkəmə onu 485 min manat borclu çıxarıb..

**Sabunçu rayonu, Zabrat 1 qəsəbəsi, Babək küçəsi 23, mənzil 39 sakini Cabbarov Telman Məhərrəm oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi məhkəmə prosesində olan haqsızlıqlardan narazılığını bildirir:**

"Mən, Cabbarov Telman Məhərrəm oğlu, yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Qeyd edim ki, həyat yoldaşım Cabbarova Ruzan Müseyib Qızı tanınmış iş adamı Yusif Qədimbəylinin evində (el arasında ona "Sədərək Yusif" də deyirlər) xadimə işləyirdi. Nəfsinə uyaraq, onun evindən qızıl-zinət əşyalarını oğurlamışdır. Nəticədə, polis tərəfindən tutularaq həbs olundu.

İş məhkəməyə verildi. İstintaq vaxtı əməlindən peşman olduğunu bildirmiş və götürdüyü bütün qızıl-zinət əşyalarını geri qaytarmışdır. Lakin qarşı tərəf öz gücündən, pulundan istifadə edərək, qisas almaq naminə hakimlə danışıb, yoldaşıma 10 il iş verdirdi. Sanki adam ödürüb. Bununla yetinməyib, 485 min 373 manat da borc yazdırdılar.




Rəsmi evli olduğumuz üçün, birgə nigah dövründə alınan maşın və mülkümə məhkəmə tərəfindən əl qoyuldu. Halbuki, o maşınları təkcə yoldaşım almamışdı, bir yerdə almışdıq. Bütün qanunları pozaraq əlimizdə olanları 100 faiz müsadirə etdilər. Hətta qeydiyyatda olduğum ata evindən mənə düşən 1/4 hissəsini də əlimdən almaq istəyirlər.

Məhkəmənin çıxartdığı bu qanunsuz qərara heç kəs baxmır.

Bildirim ki, özüm şəhid qardaşıyam. Məsələ ilə bağlı Prezident Aparatında da olmuşam. Əlimdən alınan ev şəhid atasının evidir.

Bir daha qeyd edim ki, Ağır Cinayətlər Məhkəməsinin hakimi Səbinə Məmmədzadə yoldaşıma 10 il iş kəsdi, sanki adam öldürmüşdü. Ali Məhkəmənin hakimi Tahir Kərimov da həmin qərarı qüvvədə saxladı. Məhkəmə Hüquq Şurasına şikayətə getdim. Dedilər ki, biz hakimlərin işinə qarışa bilmərik.

Mən sizin sayt vasitəsilə Prezident İlham Əliyevə müraciət edirəm. Şəhid evinin əlimizdən alınmağına imkan verməyin. Mənim yoldaşım səhv edib, razıyam, amma günahı nədir, onu da çəksin. Həm 10 il iş veriblər, həm də əlimizdə olub-qalanı alırlar. Bu qədər haqsızlıq olmaz axı!

Onu da qeyd edim ki, Ailə Məcəlləsində vərəsənin ərlə arvad arasında bölünə bilmədiyi qeyd olunur. Ata mülküm bizim nikahdadan qabaq alınıb, onun bu işə heç bir aidiyyəti yoxdur. Həm də şəhid atasının evidir.

Qanunları saxtalaşdıran hakimlər biz vətəndaşları çarəsiz vəziyyətdə qoyurlar.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# 3 səhmdar cəmiyyətə özəlləşdirmə çeki qoydu, 28 ildir "qara qəpiyə" həsrətdir...

## Şərur sakinindən aidiyyəti qurumlara müraciət

**Şərur rayonu, Çomaxtur kənd sakini, müharibə veteranı Məmmədov Bəhman Məmməd oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qarşılaşdığı problemlə əlaqədar qəzetimiz vasitəsilə səlahiyyətli qurumlardan kömək istəyir:**

"Mən, Şərur rayon Çomaxtur kənd sakini, müharibə veteranı Məmmədov Bəhman Məmməd oğlu, yazaraq məktubumu dərc etməyinizi xahiş edirəm.




01.08.1997-ci ildə həyata keçirilən özəlləşdirilmə ilə əlaqədar Bakı şəhəri, Xırdalan qəsəbəsində yerləşən "Pivə" Səhmdar Cəmiyyətinə 2 pay özəlləşdirilmə çeki qoymuşam. Ümumilikdə 152 səhm qeydiyyata alınmışdır.

01.08.1997-ci ildə Bakı şəhəri, Nizami rayonu, Davud Arslan küçəsi 2 ünvanında yerləşən "Loğman" Səhmdar Cəmiyyətinə də əlavə olaraq 2 pay özəlləşdirilmə çeki qoyub, 104 səhm sahibi olmuşam.

01.08.1997-ci ildə Bakı şəhəri, Hüseynzadə küçəsi 69 ünvanında yerləşən "Muğan çörək" Səhmdar Cəmiyyətinə də 1 pay özəlləşdirmə çeki qoyaraq, 92 səhm sahibi olmuşam.

Bu illər ərzində Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə, Dövlət Əmlak Komitəsinə yazılı müraciət etməyimə baxmayaraq, heç bir müsbət cavab ala bilməmişəm. Bir neçə il bundan əvvələdək səhmdar cəmiyyətlər ilin yekunlarında məktub göndərirdilər ki, bu ildə ziyanla başa vurduq. 2018-ci ildə isəcəmi bir dəfə "Pivə" Səhmdar Cəmiyyəti mənə 170 manat ödəyib.

Qeyd edim ki, səhmdar cəmiyyətlərin maliyyə fırıldaqları barədə Respublika Prokurorluğuna, məhkəmələrə, Prezident Aparatına, Daşınmaz Əmlak Komitəsinə dəfələrlə yazılı müraciət etməyimə baxmayaraq, heç bir müsbət cavab ala bilməmişəm.

Sizin sayt vasitəsilə əlaqəli qurumlardan bu şikayəti diqqətə almalarını xahiş edirəm".

**Jalə FAMİLQIZI**

**Redakisadan: Yazıda adları çəkilən qurumların mövqeyini dərc etməyə hazırıq.**




# "Bank VTB"-yə qarşı dələduzluq iddiası

## Kreditini hər ay vaxtında ödəyən vətəndaş banka necə borclu qaldı?

**Hüseynova Könül Bəxtiyar qızı tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, "Bank VTB" vətəndaşlara qarşı dələduzluq edir:**

"Mən, Hüseynova Könül Bəxtiyar qızı, bildirirəm ki, "Bank VTB" vətəndaşları aldadır.

Belə ki, 2022-ci ildə adını çəkdiyim bankdan 36 aylıq kredit götürmüşdüm. Bütün ödənişləri 1 gün belə keçirmədən, vaxtından tez ödəmişəm. Hər ay 70 manat, sonralar isə 68 manat ödəniş etmişəm.

Fevral ayında kreditin müddəti başa çatdı. Bir müddət sonra mənə mesaj gəldi ki, banka 150 manat borcunuz qalıb. Halbuki, bizim borcumuz qalmalı deyildi. Özlərinin bizə verdiyi kağızla ödənişləri vaxtından tez etmişik. Odur ki, problemli şöbəyə müraciət etdik. Bundan sonra 150 manatı 90 manatla əvəzlədilər. Daha sonra bank əməkdaşı tərəfindən yenidən mesaj göndərilərək 39 manat gecikməyə görə borcunuzun qaldığı bildirildi. Razılaşıb, 39 manat məbləği ödədik.



Bir neçə gün keçəndən sonra bankın kağızına bir daha baxış keçirəndə bildim ki, bizi aldadıb, 39 manatı alıblar. Bankın əməkdaşı ilə əlaqə saxlayıb, iradımı bildirdim. Bunun dələduzluq olduğunu dedim.

Ən acınacaqlısı da odur ki, onsuz da banklar vətəndaşları aldadır, bəzilərimiz məcbur qalıb banklara üz tuturuq. Amma ödəniş bitdikdən sonra gözlərinin doymamaqları, vətəndaşların son qəpiyinə kimi əllərindən almaq istəmələri heç insanlığa sıxmır.

Mənə məsləhət verirlər ki, məhkəməyə müraciət et. Məhkəmə pulsuzdur? Rüsümü yoxdur? Biz vətəndaşları belə çarəsiz vəziyyətdə qoyurklar. Nə qabağa gedə bilirik, nə də geri".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# "Bu, bizə qarşı savaşdır..."

**Narkotiklərin yeniyetmə və gənclərimizə vurduğu fəsadların aradan qaldırılması üçün əsas çıxış yolu müalicə prosesidir. Lakin sovet dönəminin mirası olan müalicə üsulları hazırkı dövrdə təsirsizdir. İndi orqanizm üçün daha təhlükəli olan süni narkotiklərin çeşidləri günbəgün artır ki, bütün bunlar da yeni və daha fərqli müalicə metodları tələb edir. Hansı ki, bu metodlar çərçivəsində narkoloji dispanserdə 21 günlük detoksikasiya yalnız prosesin başlanğıc mərhələsidir.**



## Zahid Oruc: "O da həqiqətdir ki, daxildə də narkotiki qazanc mənbəyinə çevirən dairələr olub"

Amma, etiraf etməliyik ki, elə ilk mərhələdəcə cəmiyyət olaraq peşəkar narkoloq çatışmazlığı yaşayırıq. Hansı ki, bu günlərdə Milli Məclisin deputatı Zahid Oruc da bu problemə toxunaraq, ölkəmizdə 500 narkotik istifadəçisinə 1 narkoloq düşdüyünü açıqlamışdı. Odur ki, bu problemin həlli yollarını elə Zahid Orucla müsahibəmizdə aydınlaşdırmağa çalışdıq.

***- Zahid müəllim, Milli Məclisin 7 martda keçirilən iclasında Azərbaycanda hər 500 narkotik istifadəçisinə 1 narkoloq düşdüyünü bildirmisiniz. Necə düşünürsünüz, narkoloqların çatışmazlığı istifadəçilərin müalicəsində hansı yetərsizliyi yaradır?***

- Şübhəsiz ki, biz bu məsələyə yalnız bir qurum, bir səhiyyə sistemi, yaxud bir konkret nazirliyin fəaliyyətinin hədəfi kimi yanaşsaq, onda çətinliyi görmək o qədər problemli olmayacaq. O mənada ki, biz fərqindəyik ki, Azərbaycan dünyaya açılandan bu yana - ötən illər ərzində sərhədlərimizdən keçib gələn ən böyük təhlükə həm də "ağ ölüm" olub. Bu haqda sizinlə danışmışıq. Buna dair daha səhəvi kompetent qurumlar var. O cümlədən, müvafiq komissiya fəaliyyət göstərir. Daxili işlər orqanları uzun illərdir sərhəd xidməti və gömrük orqanları ilə sistemli, koordinasiyalı işlər aparır. Ancaq o da həqiqətdir ki, bu siyasəti bəlkə dövlət mənşəli, dövlət iradəli, dövlət himayəli qruplar, beynəlxalq şəbəkələr səviyyəsində daim ilbəil artırırlar. Ona görə də, bu, son nöqtəsi qoyulmayacaq bir mübarizə, bəlkə də müharibədir.

Təəssüflər olsun ki, burada, qeyd etdiyimiz kimi, xarici şəbəkələr daha önəmli rol oynayırlar. Ona görə də ifşa edilən narkodilerlər, kartellər və yaxud da qruplar, şəbəkələr hər zaman üçüncü ölkələr olublar. Lakin, digər tərəfdən, o da həqiqətdir ki, daxildən də bu və ya digər hallarda, xüsusilə də müəyyən kriminallığa meylli şəxslər tərəfindən bunu bir qazanc mənbəyinə çevirən dairələr olub. Onlar da nə qədər sərt cəzalansalar da, buna rəğmən, öz fəaliyyətlərini davam etdirirlər. Hər halda, Əfv Komissiyasında cinayət törədən şəxslərin ümumi statistikasını, orada baş verən hadisələrin xarakterini, mənşəyini, səbəblərini görə və təhlil edə bilirik. Və təəssüflər olsun ki, məhkum edilən şəxslərin sırasında narkotik istifadəçilərinin, daha doğrusu, narkotik satışını həyata keçirən şəxslərin özünəməxsus çəkisi var.

Narkotik mənşəli cinayətlər isə ayrı kateqoriyalı hadisədir. Narkotik mənşəli digər cinayətlər də təəssüf doğurur. Tutaq ki, narkotik qəbul edən şəxsin müəyyən bir vaxtda oğurluğa, quldurluğa və s. kimi əməllərə baş vurmasının səbəbi sonuc etibarilə məhz narkotiki əldə etməsi olur. Bu da narkotik mənşəli cinayətlər kimi tövsif edilməkdədir. Bu mənada, cəmiyyətdə narkoloqlara - bu sahə üzrə peşəkar klinik mütəxəssislərə ehtiyac var.

Ancaq işlə bağlı daha sistemli tədbirləri müvafiq olaraq yalnız Elm və Təhsil Nazirliyində görməklə məsələ bitmir. O cümlədən, bu yöndə fəaliyyət aparan dispanserlərin yaradılması, öncəki tədbirlərin hamısı bir-biri ilə sistemli, sinxron bağlıdır. Hər bir halda dövlətin burada çox sərt bir iradəsi var. Bu, dəqiqdir, mütləqdir. Narkotiklərə qarşı ən sərt mübarizəni aparan dövlətlərdən biri məhz Azərbaycandır. Bu, məhz bizə qarşı aparılan savaşın bir hissəsidir. Ona görə ki, gənclərin həyatının məhvi, ailələrin dağılması, həbs cəzası aldıqdan sonra illərlə məhbus ömrü yaşayanlara dövlətin külli miqdarda vəsait xərcləməsi və s. kifayət qədər resurslar tələb edən məsələdir. Dövlətimiz iradə ortaya qoyur, bütün bunlara qatlaşır. Biz onu da deməliyik ki, əksər hallarda xüsusilə DİN hər zaman bu məsələlərlə bağlı aparılan çox mühüm işləri təqdim edərkən vurğulanır ki, bir narkotik cinayətinin üstünün açılması çox böyük vəsaitlərə başa gəlir. Çünki ən çətin xarakterli cinayətlər sırasındadır. Yəni "bu neçəyə başa gəlir" sualına cavab olaraq deyə bilərik ki, gerçəkdən də çox böyük rəqəmlərdir. Asan deyil. Bu cinayətin izinə düşmək, onları yaxalamaq, ifşa etmək həddən çox vaxt tələb edir. Burada narkoloqların azlığına diqqət çəkməyə çalışmışam. Açıq mənbələrdə olan məlumatlardan yararlanmışıq. Buna diqqəti çəkməyə cəhd etmişəm ki, bu istiqamətdə daha yeni yanaşmalara ehtiyac var.

Bildiyimiz kimi, bu sahə üzrə yeni xüsusi narkoloji dispanserlərin qurulması istiqamətində müəyyən addımlar atılmaqdadır. Düşünürəm ki, onunla paralel şəkildə bizim həkim mütəxəssislərin həm praktiki sahədə bilikləri, həm də gələcək dövrdə təhsillə bağlı məsələlərdə bir neçə qurumun sistemli addımlarına ehtiyac var. Mənim gətirdiyim rəqəm o demək deyil ki, bir şəxs onların hamısının müalicəsində iştirak edir. Bu, ümumi statsitikaya bir baxışdır. Onlar bəlkə də başqa sahələrdə, başqa qüvvələr tərəfindən, başqa həkimlərimizin nəzarəti altında müxtəlif formalarda müalicə olunurlar. Ancaq, bununla bərabər, biz onun tərəfindəyik ki, bu problemlə birbaşa bu sahənin peşəkarları məşğul olsun və peşəkar narkoloqların sayı artırılsın.

***- Əlbəttə, yeni ixtisaslı narkoloqların yetişdirilməsi 3-5 günün işi deyil, bunun üçün illər lazımdır. Amma nəzərə alsaq ki, ölkədə narkomanların sayı sürətlə artır və biz onların müalicəsi üçün illərlə gözləyə bilmərik, deməli, daha operativ tədbirlərə ehtiyac var. Sizcə, özəl reabilitasiya mərkəzləri bu boşluğu doldura bilir?***

- Hər bir halda bu çağırışları özəl reabilitasiyalar hiss edir, duyur, ona adekvat tədbirlər tətbiq edirlər. Çünki tibbi sfera özü də biznesin ən aparıcı sahəsidir. Düşünürəm ki, bu insanları müalicəyə cəlb etməklə problemin həllində kömək olurlar. Amma hər bir halda desək ki, onlar bu sferanı tam əhatə edə bilirlər, yanlış olar. O üzdən, bu məsələdə hamı dövlət strukturlarının rolunu qabarıq görmək istəyir. Demək istəyirəm ki, dövlətin burda mühüm iradəsi var. Üçüncü dəfə vurğulayıram ki, bu həqiqətən bir savaşdır. Ən önəmli məsələ qarşıdakı dövrdə dediyiniz vətəndaş cəmiyyətləri, ixtisaslı və peşəkar təhlillər aparan qurumlar, birinci növbədə DİN vahid proqramlar, yeni yanaşmalar, yeni yol xəritələri qəbul edə bilərlər.

***- Yeri gəlmişkən, zaman-zaman özəl reabilitasiya mərkəzlərinin bağlanılması haqda təşəbbüslər də irəli sürülür. Hətta dövlət qurumlarından biri belə təkliflə də çıxış edib. Sizcə, kadr çatışmazlığı şəraitində alternativ müalicə yolu varmı, varsa nələrdir?***

- Alternativ müalicə yolları - kimsə bunu fərdi qaydada seçməyə qərar verirsə, bu, çox vaxt effektli olmur. Burada ixtisaslı mərkəzlərə ciddi ehtiyac var. Özəl reabilitasiyalar lisenziyalı, yaxud xüsusi sertifikatlı qurumlar olduğu təqdirdə onların bağlanması işin faydasına deyil və biz o statistikaya qayıtsaq görürük ki, tendensiya artmağa doğru gedir. Ona görə də, sonucdan danışırıqsa ki müalicə effektiv olsun, o zaman həm narkoloq mütəxəssislərin artırılması, o cümlədən ya qeyd etdiyiniz özəl, ya dövlət xəstəxanalarının, dövlət reabilitasiya mərkəzlərinin açılması zəruridir. Ancaq ən başlıcası bu tədbirləri başlanğıc nöqtədə tətbiq etməkdir ki, bu da narkotiklərin başlanğıc nöqtədə qarşısını almaq, zərərsizləşdirməkdir. Kimsə düşünürsə ki, guya, bu məsələ ilə bağlı müəyyən hissələrə sənayemizdə yer verilməsi, aptеklərdə satılması kimi Qərb ölkələrinin təcrübəsi yaxşı nəticələr doğura bilər, bu heç vaxt yaxşı nəticə doğura bilməz. Ona görə, sağlam millət, sağlam gənclik formalaşdırmaq üçün sistemli tədbirlər görməliyik.

***- Sizcə, narkotik istifadəsi ilə əlaqədar həbsə düşən məhkumlarla bağlı hansı addımları atmaq yerinə düşər? Çünki, faktiki olaraq onların böyük əksəriyyəti, bəlkə də 100 faizi istər həbsxanada, istər də azadlığa çıxdıqdan sonra yenidən narkotik istifadə edir...***

- Belə residiv hallar gerçəkdən də mövcuddur, dəqiq məlumatlar da var. Amma çox maraqlıdır ki, onların bir qismi cəzaçəkmə müəssisələrində çox intizamlı, nümunəvi davranışları ilə fərqlənirlər. Hətta bu məqamın hansı səbəbə bağlı olduğu peşəkar hüquqşünasları təəccübləndirir. Bəlkə, bunun onlar tərəfindən seçilən xüsusi taktiki addımlar olduğu da sual edilir. Açıq desəm, peşəkar mütəxəssislərin iştirakı ilə bu məsələlərin müzakirə edilməsinə ehtiyac var ki, gələcəyimiz qənaətlər, yekunlar doğru, elmi, peşəkar olsun ki, ondan sonra bayaq dediyimiz kimi, görülən uğurlu işləri inkişaf etdirək, irəli aparaq.

**Hazırladı: İ.SABİRQIZI**

# Ukrayna "qırmızı cizgiləri"ni açıqladı

## Andrey Sibiqa: "Təcrübə göstərir ki, ruslar öz razılaşmalarına əməl etmirlər"



**"Ukraynanın danışıqlarda öz qırmızı cizgiləri var və rəsmi Kiyev qətiyyən onların tapdanmasına imkan verməyəcək".**

Bunu Ukrayna Xarici İşlər Nazirliyinin rəhbəri Andrey Sibiqa "RBC-Ukrayna" nəşrinə müsahibəsində bildirib. Nazir Kiyevin danışıqlarda 3 qırmızı cizgisinin olduğunu qeyd edib. Bunlardan birincisi odur ki, Kiyev öz ərazilərinin itirilməsini rəsmən tanımaq niyyətində deyil.

İkincisi, heç kim Ukraynaya bu və ya digər ittifaqda təmsil olunmağı qadağan edə bilməz. Bu sıraya Avropa İttifaqı və NATO da daxildir. Yəni, Ukrayna müstəqil dövlət kimi hansısa ittifaqa üzv olmaq hüququndan vaz keçmək niyyətində deyil. Nəhayət, Kiyev üçün üçüncü qırmızı xətt Ukrayna Silahlı Qüvvələrinin sayının məhdudlaşdırılmasıdır: "Üçüncüsü, Ukraynanın müdafiə qabiliyyətinə, ordumuzun gücünə, imkanlarımıza heç bir məhdudiyyət ola bilməz!".

XİN rəhbərinin sözlərinə görə, Ukraynada atəşkəsə nail olmaq çox mürəkkəb prosesdir, çünki ona necə nəzarət etmək və buna müşahidə etmək sualı yaranır.

Sibiqa xüsusilə də bunun müvəqqəti atəşkəs olduğunu vurğulayıb: "Bu, heç bir halda dondurulmuş münaqişə deyil, Amerika nümayəndə heyəti ilə birgə bəyanatımızda qeyd edildiyi kimi, 30 günlük müvəqqəti atəşkəsdir".

Onun sözlərinə görə, Ukraynanın "Minsk prosesi" təcrübəsi göstərir ki, Rusiya Federasiyasından istənilən təxribatları gözləmək olar: "Təcrübə göstərir ki, ruslar öz razılaşmalarına əməl etmirlər və onların praktikası bu atəşkəsi dərhal pozmaqdır. Deməli, bizim həqiqətən də effektiv obyektiv nəzarət mexanizminə ehtiyacımız var. Şübhəsiz ki, bunun da beynəlxalq komponenti olmalıdır. Burada sual budur ki, bu cür monitorinqi kim həyata keçirə bilər, çünki təbii ki, milli komponent var, bu, bizim ərazimizdə baş verir. Ona görə də Ukrayna özü atəşkəs rejiminə əməl olunmasına nəzarət və monitorinqlə bağlı həlledici amildir".

Nazir əlavə edib ki, Ukrayna artıq bu prosesin təmin edilməsi üçün komandanın formalaşmasına başlayıb: "Burada biz əlbəttə ki, son bir neçə il ərzində artırdığımız texniki imkanlarımızı nəzərə almalıyıq. Amma şübhəsiz ki, Rusiya tərəfində mümkün pozuntuların və təxribatların obyektiv qeydə alınmasını təmin etmək üçün beynəlxalq komponent olmalıdırg Ona görə də bu, bizim avropalı həmkarlarımızla, Amerika tərəfi ilə də müzakirə mövzusudur və biz indi bu məsləhətləşmələri aparırıq".

**KƏNAN**

# Almaniya tezliklə atəşkəs olacağına inanmır

## "Ukraynaya yeni silah tədarükünə başlayacağıq"



**Almaniya Ukraynada atəşkəsin tezliklə əldə ediləcəyini gözləmir, ona görə də yeni silah tədarükləri hazırlayır.**

Bunu BİLD nəşri Almaniya hökumətinin sözçüsü Steffen Hebestreitə istinadla yazıb.

Almaniyanın aparıcı partiyalarının Ukraynaya üç milyard avroluq yardım paketi ilə bağlı prinsipial razılığa gəldiyini qeyd edən Hebestreit atəşkəsin əldə olunmasının hələ bir qədər vaxt aparacağını deyib. Buna görə də, yaxın bir neçə həftə ərzində Ukraynaya yeni silah tədarükü başlayacaq. Söhbət ilk növbədə artilleriya sursatından gedir.

Eyni zamanda, Ukrayna üçün bəzi digər silahlar, o cümlədən İris-T və Patriot hava hücumundan müdafiə sistemləri sifariş veriləcək. Lakin bu silahlar yalnız bir-iki ildən sonra təhvil verilməyə hazır olacaq. Bunun uzanmasına səbəb istehsalçı müəssisələrin sifarişlə tam yüklənməsidir.

# Makron Ukraynada 3 şəhərin adını çəkdi...

## Sülhmərmalı kontingent bu bölgələrə yerləşdirilə bilər



**Ukrayna ilə müttəfiq ölkələr Kiyev, Odessa və Lvova sülhməramlı qüvvələr yerləşdirmək imkanını nəzərdən keçirirlər.**

Bunu Fransa Prezidenti Emmanuel Makron "Le Parisien"ə müsahibəsində deyib. Makron bu addımın Ukraynaya dəstək olmaq üçün daha geniş strategiyanın bir hissəsi olduğunu bildirib.

O qeyd edib ki, onların məqsədi qoşunları kütləvi şəkildə geri çəkmək deyil. Makron əlavə edib ki, Avropada ən böyük ordu hazırda bir milyona yaxın əsgəri olan Ukrayna ordusudur.

"Biz təlim proqramlarını həyata keçirmək və uzunmüddətli dəstək nümayiş etdirmək üçün əsas nöqtələrə bir neçə min əsgəri yerləşdirməkdən danışırıq", - Makron bildirib. Fransa prezidenti Kremlə də açıq şəkildə bildirdi ki, Moskvanın Ukraynanın müttəfiqlərinə sülhməramlıların göndərilməsi ilə bağlı şərt qoymağa haqqı yoxdur.

"Ukrayna suveren dövlətdir və müttəfiq qoşunlarını öz ərazisinə dəvət edərsə, bunu qəbul edib-etməmək Rusiyanın işi deyil", - Makron bildirib.

# Aİ Ukraynaya 3,5 milyard avroluq yardımı təsdiqlədi

**Avropa İttifaqı (Aİ) ölkələri Ukraynaya təxminən 3,5 milyard avro maliyyə dəstəyi göndərilməsini təsdiqləyib.**

Belə ki, Aİ Ukraynaya 2027-ci ilə qədər 50 milyard avro maliyyə dəstəyi vermə planı çərçivəsində üçüncü müntəzəm ödəniş qərarının üzv dövlətlər tərəfindən qəbul edildiyini açıqlayıb. Bəyanatda deyilir ki, Ukrayna təxminən 3,5 milyard avroluq fondu almaq üçün lazımi şərtləri və islahatları yerinə yetirib. Açıqlamada Aİ-nin Ukraynanın makromaliyyə sabitliyinə, iqtisadi dirçəlişinə və yenidən qurulmasına dəstək verəcəyi və üçüncü ödənişlə ölkənin bir il əvvəl qüvvəyə minmiş Ukrayna Fondu çərçivəsində təxminən 20 milyard avro vəsait əldə edəcəyi qeyd edilib. Bəyanatda xatırladılıb ki, Ukrayna Fondu 2024-2027-ci illər üçün ölkəyə 50 milyard avroluq qrant və kreditlər şəklində stabil maliyyə verəcək.



# Çinin yeni döyüş təyyarəsi kosmosa çıxa bilir

**Çin özünün yeni nəsil "J-36" döyüş təyyarəsinin ikinci sınaq uçuşunu həyata keçirib. "J-36"-nın ikinci sınaq uçuşu birinci uçuşdan cəmi bir neçə ay sonra baş tutub ki, bu da ilk uçuşu 2028-ci ilə yaxın bir müddətə proqnozlaşdıran analitikləri təəccübləndirən bir qrafikdir.**

Qeyd edək ki, ilk sınağını 26 dekabr 2024-cü ildə həyata keçirən təyyarənin hipersəs sürətinə çata bildiyi və ən müasir gizli xüsusiyyətlərə sahib olduğu məlum olub. Digər tərəfdən texnoloji cəhətdən ABŞ və Rusiya döyüş təyyarələrini geridə qoyduğu deyilən təyyarənin atmosferdən keçərək kosmosa çıxa bildiyi iddia edilib.

Müşahidəçilər təyyarənin qabaqcıl gizlilik və davamlılıq xüsusiyyətlərinə malik ola biləcəyini iddia etsə də, qırıcı təyyarə hələ rəsmi olaraq təqdim edilməyib.

Çinli ekspertlər hesab edirlər ki, ölkənin ilk altıncı nəsil gizli döyüş təyyarəsi hipersəs sürəti ilə əvvəlkindən daha yüksək sürətə çata bilir. Çinin dövlət mediası təyyarənin əslində "gizli qırıcı" olduğu iddialarını təsdiqləyib.

Təyyarənin "Chengdu Aircraft Industry Group" tərəfindən istehsal edildiyi güman edilir. Bu qrup Çinin aparıcı döyüş təyyarələri və dron istehsalçılarından biridir.

# Ukrayna yeni raketlərin istehsalına başlayır

## Anatoli Xrapçinski: "Bu raket Avropada yeganədir"

**Döyüşdə uğurla sınaqdan keçmiş Ukraynanın yeni "Uzun Neptun" raketi Avropada yeganə belə uzaqmənzilli "yer-yer" raketidir.**

"Azpolitika" xəbər verir ki, bunu ukraynalı hərbi mütəxəssis Anatoli Xrapçinski yerli mətbuata açıqlamasında deyib. Xrapçinski vurğulayıb ki, 1000 kilometrə qədər uça bilən "Uzun Neptun" Ukrayna Silahlı Qüvvələrinin imkanlarını əhəmiyyətli dərəcədə yaxşılaşdırır, xüsusən də Qərb silahlarının tədarükünün azalması fonunda: "Deyə bilərik ki, bu, hazırda Avropada belə məsafədə işləyə bilən yeganə "yer-yer" raketidir".

Onun fikrincə, Ukrayna Avropaya "Uzun Neptun"un istehsalını genişləndirmək üçün səyləri birləşdirməyi təklif edə bilər. Xrapçinskinin sözlərinə görə, uzunmüddətli perspektivdə söhbət ayda onlarla belə raketin istehsalından gedir, lakin Kiyev Avropa ilə gücünü birləşdirsə, istehsal əhəmiyyətli dərəcədə arta bilər.

Xatırladaq ki, Ukrayna Prezidenti Volodimir Zelenski Ukraynanın yeni "Uzun Neptun" raketinin sınaqdan keçirildiyini və döyüşlərdə uğurla istifadə olunduğunu bəyan edib. Onun sözlərinə görə, sınaq zamanı Ukraynanın yeni raketi dəqiq zərbə endirib. Qeyd olunur ki, "Uzun Neptun" min kilometr məsafəyə dəqiq zərbə vura bilir. Artıq onun uğurlu istifadəsini əks etdirən video internetdə yayımlanıb. Belə ki, martın 14-də Rusiyanın Tuapse Neft Emalı Zavodunun məhz bu raketlə vurulduğu bildirilir.



# Şəhid qızı Təhsil şöbəsinin müdirindən şikayətçidir

## "Dedi ki, istəyirsən get Prezidentə şikayət et, sənə iş verməyəcəm"

**Samux rayonu, Sərkar kənd sakini Bağırova Aytən Çingiz qızı tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Saytımız vasitəsilə Elm və Təhsil naziri Emin Əmrullayevə müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

"Cənab Nazir!

Mən, Bağırova Aytən Çingiz qızı, öncə qeyd edim ki, keçən ilin iyul ayında Samux rayon Təhsil Şöbəsinin müdiri Nurlana xanıma işlə bağlı müraciət etmişdim. O, sənədlərimi təqdim etməyimi istədi. Sənədlərimi verən zaman isə bildirdilər ki, iş olan kimi sizə xəbər verəcəyik.



Bir müddət sonra, yəni sentyabr ayında Samux rayonu, Ziyadlı kəndində dayə işi olduğunu öyrəndim. Gedib maraqlandım, niyə çağırılmadığımı öyrənməyə çalışdım. Mənim bu sorğu-sualım müdirin xoşuna gəlmədi. Mənə bildirdilər ki, həmin işi şəhidin qardaşının yoldaşına vermişik.

Bu zaman mən də dedim ki, "şəhidin qızı deyil, yoldaşı deyil, qardaşının yoldaşına iş vermək məcbur idi?" Əlavə etdim ki, mən də şəhid qızıyam. Onlardan daha çətin vəziyyətdə olan insanlar var.

Nurlana xanım isə "yaxşı edib işi ona vermişəm, ürəyim kimə istəyir, ona da verəcəm", - dedi.

Keçən ilin oktyabr ayında Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin müdiri Anar Qədiməliyevun qəbulunda oldum. Anar müəllim dərhal Nurlana xanımla danışdı, bildirdi ki, "baxçada iş olan kimi şəhid qızını işlə təmin edin".

Noyabr ayında yenidən iş oldu. Amma bu dəfə də Nurlana xanım qərəzli şəkildə məni yox, digər vətəndaşı işlə təmin etdi. Yenidən Nurlana xanımın qəbuluna getdim. Bu dəfə də bildirdi ki, "əcəb edib götürmüşəm, kimi istəyirəm, onu da götürəcəm, hara istəyirsən, kimə istəyirsən get şikayət et. Dedi ki, hətta istəyirsən Prezidentə şikayət et".

Mən şəhid qızıyam və təcili iş axtarıram. Lakin Samux rayon Təhsil Şöbəsinin müdiri Nurlana xanım mənə qarşı qərəzli yanaşaraq, işlə təmin olunmağıma imkan vermir.

**Cənab Nazir!**

Mən, Sizdən şəhid qızı kimi xahiş edirəm, bu müraciətimi cavabsız qoymayın, işlə təmin olunmağıma dəstək göstərin".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# Bərdə sakini Dövlət Məşğulluq Xidmətindən narazılıq edir...

**Bərdə rayon sakini Səfərov İlyas Məmməd oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Anar Əliyevə müraciət edir:**




"Cənab Nazir!

Diqqətinizə çatdırım ki, onkoloji xəstəyəm və əliləm. Himayəmdə iki azyaşlı övladım var. Oğlumun biri hazırda hərbi xidmətdədir.

Ailə saxlamaq, dolanmaq çox çətin olub. Dövlət Məşğulluq Agentliynə aztəminatlı ailə başçısı kimi müraciət etmişəm. Ötən ilin sentyabr ayında kursdan keçmişəm. Hələ də müraciətimə müsbət cavab yoxdur. Sizdən xahiş edirəm ki, mənim heyvandarlıqla təmin olunmağım üçün göstəriş verəsiniz".

Məsələ ilə bağlı Dövlət Məşğulluq Xidmətinin mətbuat katibi Əsmər Nəcməddinqızı ilə əlaqə saxladıq. O bildirdi ki, Bərdə rayon sakini Səfərov İlyas Məmməd oğlunun müraciəti araşdırılıb: "Vətəndaş məşğulluq sistemində qeydiyyatdadır və "Maldarlıq təsərrüfatı" zərfi üzrə özünüməşğulluq proqramına müraciət edib. 2024-cü ildə proqramın icrası qaydalarına uyğun olaraq onun şəraitinin ilkin monitoringi olub və təlimlərə cəlb edilib. İ.Səfərov hazırda aktivlərlə təmin olunması üçün növbədədir.

Qeyd edək ki, özünüməşğulluq proqramı iştirakçılarının aktivlərlə təmin edilməsi növbəli qaydada həyata keçirilir. İlyas Səfərovun da adı cari il üzrə aktivlərlə təmin olunacaq şəxslər arasındadır. Yaxın zamanda ona seçdiyi istiqamət üzrə avadanlıqlar veriləcək".

**Jalə FAMİLQIZI**

# "Bizim ölkədə varlılar kasıbları əzir..."

## Ağdaş sakini işdən qanunsuz olaraq çıxarıldığını deyir

Ağdaş rayonu, Ağzıbir kənd sakini Abdullayev Saday İsmayıl oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, onu DOST Mərkəzindən qanunsuz olaraq işdən çıxarıblar: "Mən, Abdullayev Saday İsmayıl oğlu, yazaraq Sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız.




Bildirim ki, əvvəl "Pirazə Mexaniki Suvarma" idarəsində işləyirdim. İşlədiyim yerdən məni DOST Mərkəzinə yönləndirdilər. Onlar da qeyri-qanuni olaraq işimə son verdilər. Mənim yerimə isə öz yaxın adamlarını işə götürdülər. Bu, özbaşınalıq deyil də, nədir?

Qeyd edim ki, ailəm 5 nəfərdən ibarətdir. Məni ailəmin və uşaqlarımın yanında çarəsiz buraxıblar. Evə bir tikə çörək gətirə bilmirəm.

İşdən azad olmağıma səbəb Alxasov Valeh, Məmmədov Nofəldir. Onlar qohumdur. Çox imkanlı şəxslərdir, bahalı maşınlar sürürlər. Bunların hamısı rüşvətlə yığılmış var-dövlətdir. Bu məlumatı yazmaqda məqsədim odur ki, bizim ölkədə varlılar kasıbları əzirlər, istəyirəm bunu hər kəs bilsin".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# "Biz xəstələrin öldürülməsinə və şikəst qalamsına imkan verməyin"

## Ağcabədi sakinindən nazirliyə müraciət

**Ağcabədi rayon sakini Hüseynov Adışirin Sabir oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi haqsızlığa uğradığını bildirir:**

"Mən, Hüseynov Adışirin Sabir oğlu, yazaraq bildirirəm ki, 10 ildir dializ xəstəsiyəm, böyrəklərim işləmir. Bu səbəbdən də 1-ci qrup əlilliyim var.




Xeyli vaxt idi qolumdan dializ olunurdum. Qoluma qoyulan "fistal" xarab olduğu üçün, onu dəyişmək lazım gəldi. Özəl xəstəxanaya göndərdilər ki, yeni "fistal" qoyulsun. Həmin xəstəxanada pulsuz etmədilər ki, dövlət bizə onu pulsuz vermir. Məcbur qalıb, pulunu verdim, boyun nahiyəmdən qoydurdum.

1 ilə yaxındır ki, onunla dializ olunuram. Amma qolumda dəhşətli ağrılar səngimək bilmirdi. Bu səbəbdən göndərişlə "İstanbul NS" klinikasına yönləndirdilər. Orada həkim İlqar Hüseynovun qəbulunda oldum. "Anju" əməliyyatı olundum. Əməliyyat uğursuz oldu. Barmaqlarımı hərəkət etdirə bilmirəm. Ora qoyulan "fistal"ı da bərpa etmək əvəzinə, xarab etdilər.

Həkim İlqar Hüseynov "2 həftə sonra gəl" dedi. Həmin vaxt getdikdə isə qəbul etmədi. Bildirdi ki, "get, özünə başqa həkim tap, sənin əməliyyatını sığorta qalşılamır". Hətta bildirdi ki, mənim əməliyyatıma görə onun əmək haqqından 1900 manat pul tutulub. Bu səbəblə də bizi başqa həkimə yönləndirdi.

Hazırda boyun nahiyəmdən də dializ ola bilmirəm, vəziyyətim yaxşı deyil. Boynumdakının yerini dəyişib, qolumu yenidən əməliyyat etmək lazımdır. Ağcabədi Rayon Xəstəxanasından Bakı şəhərində yerləşən bir neçə xəstəxanaya sorğu göndərilib, lakin imtina cavabı verirlər.

"İstanbul NS" klinikasının həkimi İlqar Hüseynov məni səhv əməliyyat edib. Bu gün də onun fəsadını çəkirəm. Sizin sayt vasitəsilə Səhiyyə Nazirliyinə müraciət edirəm ki, biz xəstələrin öldürülməsinə və şikəst qalamsına imkan verməyin".

**Jale FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adı qeyd olunan qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Əbülfəz ürəklərdə yaşayır



**Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatan 44 günlük haqq savaşımızda Vətən, torpaq uğrunda canını fəda edən minlərlə qeyrətli oğlanlardan biri də şəhid Əbülfəz Rəhmətovdur. Hər dəfə bu ad çəkiləndə bütün Lerik camaatı qürur duyur. Əbülfəz göstərdiyi şücaətlə Azərbaycan xalqının qəhrəmanlıq simvoluna dönərək ölməzlik qazanıb.**

Əbülfəz Hüseynverdi oğlu Rəhmətov 3 iyul 1989-cu ildə dağlar diyarı Lerik rayonunun Ambu kəndində dünyaya göz açıb. Məktəb illərindən qəlbi düşmən tapdağında qalan cənnət-məkan Qarabağ torpaqlarının azad edilməsi ilə alışıb-yanan Əbülfəz müstəqil həyata qədəm qoyanda ömrünü hərbiyə bağlayıb. Belə ki, 2010-cu ildə Ali Hərbi məktəbini bitirib leytenant kimi həmin ildən başlayar Vətənin keşiyində durmağa. Çox keçməyib kapitan rütbəsini alıb və müxtəlif hərbi hissələrdə tağım komandiri vəzifəsindən başlamış tabor komandiri vəzifəsinə qədər yüksəlmiş, peşəkar, təcrübəli zabit kimi Azərbaycan Ordusunda öz xidmət ilə tanınıb, sevilib.

Xidməti boyu bir qayda olaraq Qarabağımızı işğal altında saxlayan erməni cəlladlarından qisas almaq üçün məqam axtaran komandir birinci arzusuna Aprel döyüşlərində çatıb. Göz qırpmadan döyüşlərə atılıb, yağıya qan qusdurub. Əbülfəz kimi Vətən sevdalıların qəhrəmanlığı sayəsində işğaldan azad olunan Lələ-təpədə üçrəngli qələbə bayrağımız dalğalanıb. Eləcə iyul ayında Tovuz istiqamətində baş verən hadisələrin də qəhrəmanı olub Əbülfəz. Həm də sübut edib ki, həmişə haqq işi uğrunda canından-qanından keçməyə hazırdır.



2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Azərbaycan Ordusunun kapitanı Əbülfəz Rəhmətov birbaşa səngərə girib düşmənlə vuruşub. Elə ilik döyüşdə sinəsini yanar oda döndərib dığaların bağrını çatladıb. Kəşfiyyatçı və motoatıcı taborun qərargah rəisi kimi Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən haqq savaşımızda göstərdiyi şücaətlə tarix yazıb. 16 oktyabr 2020-ci ildə Cəbrayıl istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olub. Vətənlə döyünən ürəyi dayansa da, komandirin mərdliyi, igidliyi əsgərləri qələbəyə aparıb. Xalq qəhrəman oğlunu ürəyində yaşatmaqla, dövlət də onu "III dərəcəli Rəşadət" ordeninə, "Vətən uğrunda", "İgidliyə görə" medallara layiq görüb.



Şəhid kapitan Əbülfəzi Rəhmətovun adını özündə yaşadan yadigarlar çoxdur. Ev muzeyi onu xatırlayan əşyalarla zəngindir. Bu günlərdə Lerikin bir qrup mədəniyyət işçisi muzeyi, eləcə şəhid ailəsini ziyarət ediblər. Ziyarət zamanı şəhidin valideynləri onun haqqında xoş xatirələrini, vətənpərvərliyi barədə fikirlərini mədəniyyət işçiləri ilə bölüşüblər. Eləcə də şəhidin ev muzeyi, xatirə şəkilləri ilə tanış olan mədəniyyət işçiləri bildiriblər ki, şəhidlər hər biri Azərbaycanlının and yeridir, onlar əbədi ömür yaşayırlar.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Tarixə düşən qəhrəmanlıq

## Şəhid Tosif Abdullayev seçdiyi peşəyə görə hər zaman qürur duyub, bunu özünə şərəf bilib...



**Ürəyi Vətən eşqi ilə döyünən Tosif Abdullayev 44 günlük haqq savaşımız başlayan andan göz qırpmadan yağıya qarşı döyüşə girib. Son nəfəsə qədər dığaların kabusuna çevrilən Tosif ömrünün 22-ci baharında əbədiyyətə qovuşsa da, qəhrəmanlığı dillərdə dastana dönüb. İndi təkcə dünyaya göz açdığı Cəlilabad rayonunun Qara Kazımlı kəndində deyil, bütün Azərbaycan xalqı onu əsl övlad kimi ürəyində bəsləyir. Harada bir günəş müqəddəsliyi var, qəhrəman Vətən sevdalısının sorağı oradan gəlir. Əlçatmaz, ünyetməz göylərdə parlaq ulduz ömrünü yaşayan Tosif Abdullyev dövlət tərəfindən də "Vətən uğrunda", " Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülüb.**

Bəli, erməni dığaların xalqımıza qarşı apardığı yersiz torpaq iddialar , Qarabağımızın ədalətsiz işğalı bütün qeyrətli Vətən övladları kimi Tosifi də narahat edib. Odur ki, 2017-ci ildə əsgərlik yaşı çatanda yağıdan qisas almaq məqsədilə ordu sıralına gedib. Cəbhə bölgəsinə düşüb, burada adına can dediyi doğma Azərbaycanın keşiyində ayıq-sayıq dayanıb, eləcə düşməndən qisas almaq üçün məqam axtarıb. Xidmət etdiyi hərbi hissədə cəsurluğu, qorxmazlığı, vətənpərvərliyi, ən əsası düşünülmüş ağıllı hərəkətləri ilə böyük hörmət sahibi olub. Təlimlərdə xüsusi fəallıq göstərib. Ürəyində bir istək vardı: mübarizə meydanda mənfur yağını qırıb zəbt edilmiş Vətən torpaqlarının və şəhidlərin qisasını almaq. Həmişə də əsgər yoldaşlarına deyib: "Qarabağımızın torpağına-daşına şəhid qanı həkk olunub. Unutmaq olmaz ki, erməni dığaların belə bir müqəddəs yerə ayaq qoyması günahdır. Vətən öz qeyrətli övladlarından əsir Qarabağın azadlığını istəyir."

Tosif Abdullayev üzüağ əsgərliyini başa vurub.

Lakin Vətənin bir parçası düşmən tapdağında olduğu halda dalda-bucaqda gün keçirməyi heç cür şəxsiyyətinə sığışdıra bilməyib. Elə Qarabağın azadlığı naminə həyatını hərbiyə bağlayıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətə başlayıb. Aldığı tapşırıqları, xidməti vəzifəsini ləyaqətlə yerinə yetirib. Erməni dığaların öz gücünü göstərməkdən ötrü cəbhə bölgələrində keçirilən sınaq təlimlərdən uğurla çıxıb. Qanında Vətən eşqi, torpaq sevgisi olan Tosif Abdullayev seçdiyi peşəyə görə qürur duyub, bunu özünə şərəf bilib. Və məqamı gələndə son damla qanına qədər nankor erməni dığaları ilə vuruşub qisas alacağını deyib. Bunu etməyi isə Vətən qarşısında ən müqəddəs borcu sayıb. Həmçinin onu da bildirib ki, torpaq onun yolunda şəhid olmağı bacaran oğulların çiyinlərində Vətən olur. Ali Baş Komandanın əmr olsa, biz mütləq qələbə qazanacağıq.

2020-ci il sentyabrın 27-də Qarabağın azadlığı uğrunda qızğın, qanlı müharibə başlanıb. İlk gündən Tosif ən qaynar nöqtələrdə düşmənlə döyüşə girib. Göstərdiyi hünər, yağıya vurduğu zərbələr gündən-günə artıb. Neçə-neçə ağır döyüşdən uğurla qayıdıb Tosif. Vətən sevgisi, qəhrəmanlığı yeni-yeni zəfərlərlə nəticələnib. Oktyabrın 14-də Suqovuşanda son güllənin kimi düşmənə göz açmağa imkan vermir. Özü şəhid olsa da, daha bir zəhər bayrağımız göylərə ucalıb.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**



# Unudulmaz 50 illik ömür yolu...

**Masallıda Şərəfə kənd Folklor Evi və kitabxanasının birgə təşkilatçılığı sayəsində Birinci Qarabağ müharibəsi şəhid Tələt Əliquliyevin 50 illik yubileyinə həsr olunmuş tədbir keçirildi. Kənddə şəhidlərin xatirəsinə ucaldılmış Abidə Kompleksinin önündə baş tutan tədbirin təşkilatçı müəssisələrin əməkdaşlarının, Q. İsmayılov adına kənd məktəbinin müəllim və şagird kollektivinin qatıldığı tədbiri giriş sözü ilə açan Folklor Evinin direktoru Dürdanə Hüseynova şəhidin həyat və döyüş yolundan danışdı.**

Qardaşı, sinif, döyüş yoldaşları, qazi və müəssisə rəhbərləri şəhid Tələtlə bağlı xatirələrini dilə gətirdilər.

Daha sonra şagirdlərin ifasında Vətəni, qəhrəmanlığı tərənnüm edən ifalar tədbirə özgə bir ovqat qatdı.

Tədbir şəhidin məzarını ziyarət edib və xatirəsinə ehtiram əlaməti olaraq üstünə gül-çiçək qoymaqla başa çatdı.

**Zəfər ORUCOĞLU**

# Torpağı vətənləşdirən Milli Qəhrəman




**Bu günlərdə Astarada Z. Əhmədzadə adına Pensər kənd tam orta məktəbinin müəllim və şagirdlərin iştirak ilə rayon Heydər Əliyev Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun əziz xatirəsinə həsr olunmuş tədbir keçirilib.**

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və canını Vətən, torpaq uğrunda qurban verən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Dövlət Himninin sədaları altında başlanan tədbirdə çıxış edən Mərkəzin direktoru Kübra Səmədova deyib:- Vətən qaladır. Qalanı ucalıq mərtəbəsində tutan, ruhunun ucalığı bilən, sal qaya kimi düşmənin qarşısını kəsən oğullardır. Biri-birinə arxa-dayaq olan bu qayaların ürəkləri Vətənə sevgi, məhəbbətlə döyünür. Onlar Vətənimizin işıqlı sabahları, aydın səmaları üçün döyüşür, can belə əsirgəmir, şəhadətləri ilə ölümü ucaldıb ölümsüzlüyə, əbədiyyətə qovuşurlar. Şərait qəhrəmanlar yaradır, qəhrəmanlar isə tarix. Vətən sevgisi ilə bizlərin qüruru, vüqarı, fəxri olan Mübariz İbrahimov kimi. Mərkəzin əməkdaşı Elza Kazımovanın "Torpağı vətənləşdirən Milli Qəhrəman" adlı məruzəsi də tədbir iştirakçıları tərəfindən böyük maraqla dinlənilib.

Yekunda "Mübariz İbrahimov" qısa sənədli filmi nümayiş olunub.

**Zəfər ORUCOĞLU**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

# Azadlığı cəzasızlıqla səhv salanda...



## Yaxud ölkəmizdə fikir, söz və məlumat azadlığının pozulması haqda iddiallar nə dərəcədə ədalətlidir?!

**Azərbaycan dövləti zaman-zaman müxtəlif beynəlxalq təşkilatlar tərəfindən insan hüquq və azadlıqlarının pozulduğu, fikir, söz və məlumat azadlığının basqı altında qaldığı ölkələr siyahısına daxil edilir. Biz bu yazımızda həmin təşkilatların nə dərəcədə haqlı və ya haqsız olduqlarını araşdırmaq fikrində deyilik. Hər halda, bu, siyasilərin və hüquqçuların işidir. Amma media olaraq, ölkəmizdə fikir və söz azadlığının boğulması ilə bağlı iddialara aydınlıq gətirmək, bunun nə dərəcədə ədalətli olub-olmadığını ortaya çıxarmaq peşə borcumuzdur. Sözsüz, bu zaman da hakimiyyətə yandaşlıq etmək fikrindən tamamilə uzağıq. Odur ki, gəlin, Azərbaycanda fikir, söz və məlumat azadlığının durumuna aydınlıq gətirməyə çalışaq.**

Öncə onu qeyd edək ki, ölkəmizdə insan hüquq və azadlıqlarının pozulduğunu, azad sözün basqı altında qaldığını iddia edən beynəxalq təşkilatlar əsasən aparıcı Avropa ölkələrində mərkəzləşmiş qurumlardır. Məsələni dərindən araşdırdıqda görərik ki, bu təşkilatların bir çoxu xristian təəssübkeşliyi ilə fəaliyyət göstərir. Onlar nəinki Azərbaycana, eləcə də əksər Türk dövlətlərinə, İslam ölkələrinə qarşı qərəzli mövqedən çıxış edir. Doğrudur, həmin təkilatların "qara siyahı"sında Rusiya və Belarus kimi xristian dövlətləri də ön sırada yer alır. Amma bu, məsələnin tamamilə fərqli tərəfidir. Belə ki, bu dövlətlər daha çox Avropa dəyərlərinə qarşı çıxdığı üçün hədəf seçilirlər.

Azərbaycan isə öz xarici siyasətində Avropaya inteqrasiya xəttini seçmiş, Qərbin nüfuzlu beynəxalq təşkilatları ilə sıx əməkdaşlıq edən dövlətdir. Yəni Rusiya və Belarusdan fərqli olaraq, ölkəmiz Avropanın mütərəqqi dəyərlərinə sadiqdir və onların daxildə tətbiqinə çalışır. Lakin təəssüflə qeyd etməliyik ki, bəzi hallarda Azərbaycana qarşı qərəzli yanaşma, ölkəmizin haqsız olaraq hansısa "qara siyahı"lara salınması Azərbaycanın bu cür prinsipial mövqeyinə kölgə salır. Söhbət ondan gedir ki, bu gün sözdə Azərbaycanın Qərb dəyərlərini özündə ehtiva edən islahatlar aparmasını dəstəkləyən bəzi beynəlxalq təşkilatlar əməli fəaliyyətdə qeyri-səmimi mövqe ortaya qoyulur. Bunu isə biz daha çox onların ədalətsiz hesabatlarından, xüsusilə də Azərbaycanın fikir, söz və məlumat azadlıqlarının boğulduğu ölkə kimi təqdim olunmasından aydın şəkildə görürük.

Yeri gəlmişkən qeyd edək ki, hətta Avropa İttifaqının üzvü olan bir sıra xristian ölkələrində bu sahədə vəziyyət daha acınacaqlı olsa da, burada mövcud olan problemlər beynəxalq təşkilatların heç bir sənədində yer almır. Halbuki, bu faktların bir çoxu bütün dünyanın gözü qarşısında baş verir və bu haqda çox az insan məlumatsız qalır. Bizim ölkəyə gəldikdə isə, sözügedən beynəxalq təşkilatlar "qarışqadan fil düzəltməkdə" çox mahirdirlər.

Təbii ki, istər insan hüquq və azadlıqları, istər də fikir, söz və məlumat azadlıqları ilə bağlı ölkəmizdə hər şeyin ideal səviyyədə olduğunu demək də absurd olar. Əksinə, zaman-zaman bu sahədə müəyyən problemlərin yaşandığını da görürük. Amma əminliklə deyə bilərik ki, bu problemlər istər dövlətimizə, istər də hökümətə qarşı basqı olunacaq səviyyədə deyil. Əslində, özünü "demokratiyanın beşiyi" hesab edən Amerikada, eləcə də aparıcı Avropa ölkələrində də ara-sıra anoloji problemlərin yaşandığına şahid olmaqdayıq. Amma yenə də qeyd edirik ki, bütün bunları özlərinə rəva görənlər, xüsusilə də bəlli beynəxalq təşkilatlar "öz gözlərindəki tükü seçməyərək, bizim ökləmizdə tir axtarırlar".

> Təbii ki, istər insan hüquq və azadlıqları, istər də fikir, söz və məlumat azadlıqları ilə bağlı ölkəmizdə hər şeyin ideal səviyyədə olduğunu demək də absurd olar. Əksinə, zaman-zaman bu sahədə müəyyən problemlərin yaşandığını da görürük. Amma əminliklə deyə bilərik ki, bu problemlər istər dövlətimizə, istər də hökümətə qarşı basqı olunacaq səviyyədə deyil...

Məsələni bir qədər də aydınlaşdırmaq üçün fikir, söz və məlumat azadlığının mahiyyətinə, ümumiyyətlə azadlığın nə olduğuna aydınlıq gətirməyə çalışacaq. Öncə onu qeyd edək ki, "azadlıq" dedikdə hansısa bir şəxsin və yaxud şəxslərin öz fikirlərini ifadə edən zaman başqası tərəfindən və ya senzura ilə susdurulmaması nəzərdə tutulur. Bu fikrin hansı tribunadan səsləndirilməsi önəmli deyil. Hər bir şəxs texnologiyanın inkişafından yararlanaraq, öz fikrini istənilən auditoriyaya çatdırmaqda sərbəstdir. Bu, dolayısı ilə fikir, söz və məlumat azadlığının qorunması anlamına gəlir.

Lakin çox təəssüflə qeyd etməliyik ki, bəzən bizim ölkəmizdə qarşısındakı şəxsi təhqir etmək, kiminsə ünvanına söyüş söymək, başqalarını, eləcə də məmurları alçaldan ifadələr səsləndirmək və s. "azadlıq kimi" qəbul olunur. Bəzən tənqidlə təhqirin yerini səhv salırıq. Sabah həmin insan(lar) barəsində hüquq müstəvisində cəza tədbiri görüləndə isə, bu, azadlığın, xüsusilə də fikir və söz azadlığının "boğulması" kimi təqdim olunur. Unutmaq olmaz ki, şəxsiyyətindən, vəzifəsindən asılı olmayaraq, hansısa insanı təhir etmək, cəmiyyət qarşısında alçaltmaq yolverilməzdir.

O cümlədən, son vaxtlar ən çox qarşılaşdığımız problemlərdən biri də məlumat azadlığının pozulması ilə bağlı iddialardır. Belə güman edirik ki, bu sahədə də vətəndaşlarımız arasında maarifçilik səviyyəsi olduqca aşağıdır. Məsələn, insanlar sosial şəbəkələrin imkanlarından yararlanaraq, hansısa şəxsin heç bir ictimai əhəmiyyət daşımayan fərdi məlumatlarını yaymaqdan çəkinmirlər. Halbuki, qanun istənilən vətəndaşın özünün razılığı olmadan onun barəsində şəxsi məlumatların, yaxud foto və video görüntülərin, səs yazılarının yayılmasını qadağan edir. Əlbəttə, burada istisna hallar var. Amma vətəndaşlarımız, eləcə də media subyektləri məhz sosial şəbəkədə "layk" toplamaq xatirinə, təkcə qanunsuzluğa yol vermir, eyni zamanda şəxsi toxunulmazlıq hüququmuzu (Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır - maddə 32), ailə dəyərlərimizi də nəzərə almırlar. Son vaxtlar bu cür məlumatların kütləvi xarakter alması isə cəmiyyətimiz adına narahatedici haldır.

Eynilə, bəzi hallarda istər sosial şəbəkələrdə, istər də saytlarda dövlət maraqlarına zidd informasiyaların, foto və video görüntülərin yayılması hallarına da rast gəlirik ki, bunlar da birmənalı olaraq yolverilməz və qanunla qadağandır. Lakin, əfsuslar olsun ki, bəzi hallarda bu kimi insanlar məsuliyyətə cəlb edildikdə müxtəlif maraqlı qüvvələr bunu "məlumat azadlığının pozulması" kimi təqdim etməyə çalışır. Bütün bunlar isə yekunda beynəxalq təşkilatların hesabatlarında əks olunur ki, bu da ədalətsiz olmaqla yanaşı, həm də ölkəmizə qarşı qərəzli mövqenin bariz nümunəsidir. Ən azı ona görə ki, istər "nümunəvi" Avropa ölkələrində, istər də Amerikanın özündə bu kimi hallar, yəni dövlət maraqlarına zidd informasiyaların yayılması heç bir halda cəzasız qalmır...

**"Hürriyyət"**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur**

# Diyə

Turalgil ailədə iki qardaş, bir bacı idilər. Tural sakit, həlim xasiyyətli, dalaşmağı sevməyən, dostcanlı, canıyanan biri idi. Əsas hobbisi kitab oxumaq, təbiət qoynunda təklikdə gəzmək, oğlan uşaqlarına bir o qədər də xas olmayan gülə-çiçəyə vurğunluğu idi. Buna baxmayaraq, qohum-qardaş Turalı daha çox sevirdilər.

**Böyük qardaşı Turalın tam əksinə, dalaşmağa meylli, “qabağından yeməyən”, tez özündən çıxan biri idi. Ailənin ilki olduğundan xeyli ərköyün böyümüşdü. Necə deyərlər, yetənə yetir, yetməyənə bir təpik atırdı. Tural qardaşından on yaş kiçik idi, arada bacıları doğulmuşdu.**

**Hər şeyin yaxşı getdiyi günlərin birində Turalgilin ailəsinə çox dəhşətli bəd xəbər gəldi. Turalın böyük qardaşını naməlum şəraitdə kimlərsə qətlə yetirmişdi. Bu hadisəni kimin törətməsi naməlum idi. Şahidlər yox idi. Hadisədən çox gec xəbər tutulduğundan hadisə yerində də kiməsə rast gəlinməmişdi. Turalgilin ailəsi qatilin tapılması üçün çox çalışsalar da, istintaq bir iş görə, qatilin kim olmasına aydınlıq gətirə bilmirdi. Bunun əvəzinə, gündə bir şayiə yayılırdı.**



*(Əvvəli ötən sayımızda)*

...Amma bu bir gün Tural üçün illər kimi gəldi. O, həsrət hissi yaşamağa başlamışdı. Qəribsəmə hissi də bir tərəfdən onun boğazından yapışmışdı. Tural sabaha qədər nə edəcəyini bilmirdi.

Şəhərin o başında yaşayan İnci də yuxudan qəribə bir hisslə oyanmışdı. O, yenicə tanış olduğu Turalı xatırlamağa başladı. Turalın üz cizgiləri, danışığı, manerası, mühakimələri yenidən beynindən keçdi. İnci öz-özünə gülümsədi. Əvvəlcə çox yaxşı oğlandı deyə düşündü. Amma bununla Tural beynindən çıxmadı. İndi o, Tural haqqında daha ciddi düşünməyə başladı. Getdikcə Turalın onun üçün sıradan biri olmadığının fərqinə vardı. O da Tural üçün darıxmağa, tezliklə onu görməyə can atmağa başladı.

İnci romantik təbiətli bir qız olduğundan Turalla bağlı xəyallar aləminə daldı. Turalla bağlı onda yaranan hisslər ona çox tanış gəlirdi. Haradan? Birdən “Romeo-Cülyetta” yadına düşdü. Ona elə gəldi ki, o, Cülyetta, Tural Romeodur. Dərhal bu fikri başından atmaq istədi, amma əksinə Tural haqqında fikirlər daha çox onun beynini zəbt etdi. O, Tural haqqında düşündükcə həyacanlanmağa başlayırdı. İnci Turalı görmək, onun qoluna girib şəhərdə gəzmək, birlikdə kinoteatra gedib maraqlı filmlərə baxmaq istəyirdi. İnci aşiq olduğunu başa düşdü və bu andan da Turala olan bağlılığı qat-qat artmağa başladı. Bir tərəfdən də Turalın onun hisslərinə qarşılıq verib-verməyəcəyi də onu narahat edirdi.

Bazar ertəsi ilk dərs başalamamışdan hamı öz yerini tutmuşdu. Turalla İnci bir-birinin üzünə baxmağa utanırdılar, elə bil küsülü idilər. Sadəcə, alçaq səslə salamlaşmadan sonra hər ikisi susmuş, hərəsi bir şeyi bəhanə edib, özünü məşgul kimi göstərirdi. Tural cəsarət edib İncinin üzünə baxa bilmirdi. İnci də Turalın yaxınlıqda olmasından xoş bir hiss keçirirdi, sanki dünyaya yenicə göz açmışdı. İndi sinifdə Turaldan başqa heç kimi görmürdü. Nəhayət, Tural cəsarətini toplayıb araya mənasız bir-iki söz dedi. İnci dərhal bu fürsəti yaxalayıb, Turalla danışmağa başladı. Səslərindəki titrəyişlər, danışanda dillərin topuq vurması, bir-birinin üzunə baxmağa cəsarət etməmək onları bir daha bir- birinə yaxınlaşdırır və qarşılıqlı hisslərini gücləndirirdi. İkisi də bir-birini sevdiyini anlamışdı. İndi bunu kimin birinci etiraf etməsi qalırdı.

Hər iki gənc daxildə sürətlə bir-birinə yaxınlaşırdı. Elə bil, su bəndi uçmuş, sel hər yeri basmışdı. İndi onlar məhəbbət selində birlikdə üzür və xilas olmağı yadlarından çıxarıb, özlərini bu selin axarına buraxmışdılar.

Tural gözaltı İnciyə baxdı. İnci həmişəkindən daha gözəl idi. Yanaqları allanmış, gözləri parıldayırdı. Bu gün ondan adamı bihuş edən xüsusi ətir iyi gəlirdi. Tural İncidən yayılan ətrin iyindən az qalırdı huşun itirsin. O, bir daha gözlərini qaldırıb İncinin üzünə, dodaqlarına, yanaqlarına, sonra da gözlərinə baxdı. Bu gözlərdən ona bu dünyada onun üçün əvəzsiz olan bir insanın baxdığını gördü. İnci də Turalın gözlərində onun üçün hər cür fədakarlığa, ona uzaq və məşəqqətli bir yolda yoldaşlıq etməyə hazır, onun üçün əvəzsiz birinin baxışlarını gördü və bu baxışma onları bir-birinə elə bağladı ki, aralarında olan utanqaclıq hissi bir anda yox oldu. Tural asta səslə “İnci” deyə bildi. İnci də öz növbəsində “Tural” dedi. Onlar bu bir kəlmələri ilə bir-birinə bütün hisslərini ümid və arzularını ifadə etmiş oldu. Tural həyatında öz adının ilk dəfə bu qədər yaxşı səsləndiyinin fərqinə vardı. İnci isə öz adını ilk dəfə eşidirmiş kimi həyacanlandı. Onlar sözsüz də bir-birini sevdiklərini çoxdan anlamışdılar. Bu sevgi anbaan güclənir, gecələr xəyallarında bir-birindən bir an belə, ayrı qala bilmirdilər. Hər gün dərs qurtarandan sonra elə bil həbsxanaya gedər kimi hərə öz yaşadığı yerə gedir, səhər dərsə gələndə elə bil uzun məhbusluq həyatından azad olunmuş insanlar kimi sevinirdilər.

Tural gözaltı İnciyə baxdı. İnci həmişəkindən daha gözəl idi. Yanaqları allanmış, gözləri parıldayırdı. Bu gün ondan adamı bihuş edən xüsusi ətir iyi gəlirdi. Tural İncidən yayılan ətrin iyindən az qalırdı huşun itirsin. O, bir daha gözlərini qaldırıb İncinin üzünə, dodaqlarına, yanaqlarına, sonra da gözlərinə baxdı. Bu gözlərdən ona bu dünyada onun üçün əvəzsiz olan bir insanın baxdığını gördü...

Qısa müddətdə Turalla İncinin bir-birini sevdiyini universitetdə bilməyən qalmamışdı. İndi onlar yalnız sinifdə yan-yana oturmurdular, həm də bütün günü bir yerdə olurdular. Tənəffüs vaxtları bilikdə dəhlizə çıxır, birlikdə yemək yeyir, birlikdə kitabxanaya gedirdilər. Tural İncinin razılığı ilə onu evlərinə kimi ötürür, İnci evlərinə girəndən sonra Tural saatlarla onların küçəsində fırlanırdı.

İncidə baş verən dəyişilmələr anasının diqqətindən yayınmamışdı. Hətta bir-iki dəfə pəncərədən İncini evlərinədək yola salan yaraşıqlı bir oğlanı da görmüşdü. O, qızının yetkinlik yaşına çatdığının, nə vaxtsa birini sevib ailə quracağının fərqində idi. Amma İncinin bir oğlana bu qədər tez bağlanacağını gözləmirdi.

İnci ilə anası rəfiqə kimi idilər. Aralarında heç vaxt sirr saxlamırdılar. İnci hər problemini anasına deyir, anası da müstəqil həyatın çətinliklərini detallarına kimi İnciyə anladırdı. Aralarında hətta İncinin gələcəkdə ailə quracağı ilə bağli söhbət də olmuşdu. Anasi İncidən bir şeyi xahiş etmişdi, gələcəkdə ailə qurması ilə bağli ciddi bir qərar verməmişdən qabaq anası hər şeyi bilməli, onunla məsləhətləşdikdən sonra addım atmalıdır.

Anası həmişə evdə deyib-gülən, daha çox onunla vaxt keçirməkdən xoşlanan İncinin saatlarla divanda susqun halda oturub xəyallara daldığını, bəzən öz-özünə gülümsədiyini, bəzən qəmlənib gözlərinin yaşla dolduğunu müşahidə edirdi. Təcrübəli bir qadın kimi bunun məhəbbət yaşantılarının əlamətləri olduğunu ilk andan anlamışdı.

Anası İncinin yanında oturub, onun başını sinəsinə sıxdı. Uşaqlıqda olduğu kimi, qumral saçlarını siğallaya-siğallaya “qızım, mən səni başa düşürəm, hər şey təbiidir, gec-tez bir oğlanla ailə quracaqsan. Deyəsən, belə biri qarşına çıxıb. Sənlə razılaşmışdıq ki, mən onu görüb danışmalıyam. Sonra münasibətinizi inkişaf etdirə bilərsiniz. Nə deyirsən? Fikrin ciddidirsə, bizi tanış elə”, - dedi. İnci bilirdi ki, anası Turalda bir qüsur tapa bilmiyəcək, əksinə Turalı tanıyandan sonra onlar da onu sevəcək. Buna görə, anasının “O oğlanı evimizə dəvət et, mən də onu görmək istiyirəm”, - fikri ilə razılaşdı.

Sabahısı gün dərsdən sonra Tural əlində gözəl bir buket, İncigilin qapısının zəngini basdı və qeyri-müəyyən bir hisslə İncinin açdığı qapıdan içəri girdi. İncinin anası Turalı yaxından görən kimi ürəyində İncinin özünəlayiq birinə rast gəldiyinə sevindi. Tural onun gözündə yaraşıqlı, mədəni, alicənab biri kimi göründü. Artıq heç bir sorğu-sual etmədən, özözlüyündə qızının Turalla ailə qurmalsına razılığını verdi. Amma qadın marağı da onu Turalı sorğu-suala çəkməyə təşviq edirdi. Buna görə, ümumi xoşgəldindən sonra İncinin anası mexaniki olaraq Azərbaycanda dəbdə olan “A bala, haralısan?” sualını verdi. Tural asta səslə doğulduğu rayonun adını dedi. Bu rayonun adını eşidən kimi İncinin anası özünü narahat hiss etməyə başladı, rəngi dəyişdi, onu həyəcan bürüdü. Tural da, İnci də başlarını aşağı salıb, altdan-altdan bir-birinə baxır və birbirinə sevgi öpücükləri göndərirdilər. İncinin anasının halından heç birinin xəbəri olmadı. Bir qədər sükutdan sonra, İncinin anası asta səslə nəyəsə ümüd edərək “Rayonun özündənsiniz?”, - deyə soruşdu. Tural: “Yox, İşıqlar kəndində yaşayırıq”. Kəndin adını eşidən kimi İncinin anasının boğazı qurudu, rəngi meyit rəngi kimi saraldı. Ürəyində ağlına gələnin başına gəlməməsi üçün Allaha yalvarmağa başladı. İncinin anasının özünü ələ alması xeyli çəkdi...

Gənclər bir-birinə baxa-baxa paxlava ilə çay içirdilər. İncinin anası yenə titrək səslə “ananın adı nədir?” deyə soruşdu. Tural yenə də heç bir şeydən şübhələnmədən anasının adını deyib, yenə İnci ilə göz-gözə gəlmək səadətini əldən vermək istəmədi. Turalın anasının adını eşidəndə İncinin anasının boğazı qurudu, ürəyi sancdı, başında güclü bir ağrı meydana çıxdı. Gözlərində dərin bir kədər göründü. Yenə də İncinin anası nəfəsi kəsilə-kəsilə son sualı vermək üçün özünü topladı. Turalgilin familyasını deyib “ananın familyası belədir?”, - deyə soruşdu. Tural bir qədər təəccüblənsə də, yenə yaşadığı xoşbəxt anların ləzzətini çıxarmağa davam etdi. “Bəli, elədir”, - dedi. Birdən Tural özünə gəldi. İncinin anası onların soyadını hardan bilir? Gözlərini qaldırıb, İncinin anasına baxdı. Biraz bundan əvvəl sevincindən uçmağa qanad axtaran qadının üzündə qorxu, kədər, peşmançılıq və acı bir təəssüf hissi gordü. Onun gözlərindən yaş axırdı. Tural gördüyü mənzərədən çaşdı. Bayaqdan gözlərindən sevinc aşıb-daşan, ona məhəbbət, sevgi dolu baxışlarla, öz doğma oğlu kimi baxan qadın bir anın içində niyə belə dəyişdi?!..

*(Ardı var)*

**AZAD**



# Ay tutulması nədir: Tanrının rəqəmsal imzası, yoxsa...

**"Günəşi işıqlı, Ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə, Ay üçün mənzillər müəyyən edən məhz Odur. Allah bunları ancaq haqq olaraq yaratdı. O, ayələrini anlayıb bilən bir tayfa üçün belə müfəssəl izah edər!" Quran, 10:5.**

Ay tutulmaları 858 gündən bir təkrarlanır.

Bugünkü Ay tutulmasında diqqət çəkən digər məqam 858 ədədi altında təkrarlanmasıdır (hər tutulmadan 858 gün sonra digər tutulma baş verir). Cədvəli aşağıda təqdim edirik:

(Yeri gəlmişkən, qeyd edək ki, astronomiya elmində yenilik olan bu cədvəli elmi-lədunla kəşf etmişik).

Sual yaranır: Niyə astronomik hadisələr 858 gündən bir təkrarlanır?

Qeyd edək ki, bu ədəd orjinal Quranın səhifələrinin sayı olan 286 ədədinin üç mislidir.

Yeri gəlmişkən, XVII əsrə qədər üzü köçürülən, Kəbədə və muzeylərdə qorunan bütün "Quran"lar 286 səhifədə yerləşdirilib. Sonradan ərəblərin İslama və onun rəmzlərinə baxışları dəyişdiyindən "Quran"ın sözlərinə əl vurmasalar da kağız formatını dəyişdilər ki, bununla da səhifələrinin sayı artdı. Buna baxmayaraq, elmi-ləduna görə 286 ədədi "Quran"ın kodu sayılır və Allah tərəfindən yaradılan bütün elmlərin, eləcə də dünyada baş verən bütün elmi proseslərin alt qatında bu kodu (286) görmək olur. Məsələn:

1) "Quran"da təsbit olunmuş İslamın iki böyük bayramı Qurban və Ramazan bayramları arasında qalan günlərin sayı bir qayda olaraq (Qurban bayramından sayılmaqla) 286 gündür.

2) Araşdırmalarımız göstərir ki, insan ana bətnində 286 günə yaranır. Belə ki, cütlüklər görüşəndən sonra, toxumun ana bətninə çatması 6 gün + bətndə normal inkşaf 280 gün = 286 gün. Deməli, uşaq ana bətnində "Quran"ın hər səhifəsinə bir gün hesabı ilə qalır. Buradan aydın olur ki, Allah Öz riyazi "möhür"ünü insanın yaranma prosesinə vurmuşdur.

3) İnsanlar Günəş və Ay (Hicri-qəməri) təqvimindən istifadə etməklə, ildə iki dəfə bayramı qeyd edirlər: 21 martda və 31 dekabrda. Bu iki bayram arasında qalan günlərin sayı da (Novruz bayramından sayılmaqla) bir qayda olaraq 286 gündür. Hər iki təqvimi yaradan alimləri Allah yaratdığı üçün, onlara elmi Allah verdiyi üçün, Rəbbim ayrı-ayrı əsrlərdə yaşayan iki müxtəlif alimin kəşfinin üzərinə öz riyazi möhürünü (286) vuraraq, Öz qüdrətini ağıl sahiblərinə göstərmişdir.

4) Quranın 2-ci surəsi olan "İnək" surəsinin də 286 ayədən ibarət olması təsadüfi deyildir. Belə ki, inəyin 286 sümüyün birləşməsindən yaranmasını artıq elm təsdiq etmişdir.

Onu da qeyd edim ki, müqəddəs kitaba əl basıb and içərkən (yaxud, tövbə edərkən) üç dəfə təkrarlanır. Bunu riyazi dulə çevirsək:

286 + 286 + 286 = 858

Elmi-lədun araşdırmalarımız göstərir ki, Yaradan Ay tutulmalarını 858 ədədi ilə təkrarlamaqla insan oğlunun diqqətini bəşəri dəyərlər toplusu olan "Quran"a (tövbəyə) yönəldir. Bu da onu sübut edir ki, astronomik hadisələr təsadüfü olmayıb, ciddi bir qanunauyğunluğa tabedir və üzərində Yaradanın rəqəmsal möhürü (286) var.

"And olsun ki, Allah bunları hesablamış və təkrar-təkrar saymışdır". Quran, 19:84.

**Paşa Yaqub**
**Elmi-lədun bilicisi**

**858 gün fərqlə baş verən Ay tutulmalarının cədvəli**

| Tutulmanın tarixi | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma |
|---|---|---|---|---|---|---|
| 09.01.2001 | 858 | 16.05.2003 | | | | |
| 05.07.2001 | 858 | 09.11.2003 | 858 | 14.03.2006 | | |
| 30.12.2001 | 858 | 05.05.2004 | 858 | 07.09.2006 | | |
| 24.06.2002 | 858 | 28.10.2004 | 858 | 03.03.2007 | 858 | 07.07.2009 |
| 24.04.2005 | 858 | 28.08.2007 | 858 | 31.12.2009 | | |
| 17.10.2005 | 858 | 21.02.2008 | 858 | 26.06.2010 | | |
| 16.08.2008 | 858 | 21.12.2010 | 858 | 25.04.2013 | | |
| 09.02.2009 | 858 | 16.06.2011 | 858 | 19.10.2013 | | |
| 06.08.2009 | 858 | 10.12.2011 | 858 | 15.04.2014 | | |
| 04.06.2012 | 858 | 08.10.2014 | 858 | 11.02.2017 | | |
| 28.11.2012 | 858 | 04.04.2015 | | | | |
| 25.05.2013 | 858 | 28.09.2015 | 858 | 31.01.2018 | 858 | 5.06.2020 |
| 23.03.2016 | 858 | 28.07.2018 | 858 | 30.11.2020 | | |
| 16.09.2016 | 858 | 21.01.2019 | 858 | 26.05.2021 | | |
| 10.01.2020 | 858 | 16.05.2022 | 858 | 18.09.2024 | | |
| 19.11.2021 | 858 | 25.03.2024 | | | | |
| 08.11.2022 | 858 | **14.03.2025** | | | | |

# Rəqs cütlüyü

**Bu dəfə də mövzumuz rəqs cütlüklərinə aiddir. Ailəli rəqqas və rəqqasədən yazırıq.**

Əbubəkir İsmayıl oğlu Məmmədov 1949-cu il noyabrın 28-də Qusar rayonunun Böyük Moruq kəndində dünyaya gəlib. O, ailənin altıncı övladı idi. Ata-Məmmədov İsmayıl Yəhya oğlu milliyyətcə ləzgi idi, kolxoz sədri vəzifəsində çalışırdı. Ana-Məmmədova Afiyə Əliyar qızı da ləzgi xalqının nümayəndəsi idi. O, tibb bacısı işləyirdi. Əbubəkir kənd məktəbində oxuyub. Bakıda 83 saylı fəhlə-gənclər məktəbini bitirib. 26-lar adına mədəniyyət sarayındakı Böyükağa Məmmədovun rəhbərlik etdiyi özəaliyyət rəqs ansamblının üzvü olaraq sənət qaydalarını öyrənib. 1969-1971-ci illərdə Sovet ordusunda, Qırmızı Bayraqlı Xəzər Donanmasında (gəmidə) xidmət etmişdir. Həmçinin, həmin zamanı donanmanın rəqs ansamblının rəqqası olmuşdur. Buradakı repertuarı rus və xarici ölkələrin xalq və



xoreoqrafik rəqsləri, süitalar təşkil edirdi. Belə rəqslərdə "tryuk" hərəkətlər çox idi və rəqqaslardan bunları yerinə yetirmək tələb olunurdu. Əbubəkir bütün repertuarın tələbini yerinə yetirirdi.

Əbubəkir Məmmədov 1972-ci ildə Azərbaycan Dövlət Rəqs Ansamblına işə qəbul edilib. Bütün hallarda özünü solist-tryuk kimi doğruldub. Mahir bir rəqqas olaraq Əbubəkir ansamblın əsas qüvvəsinə, heyətin sevimlisinə çevrilmiş və dərin sevgi qazanmışdı. O, ansambl üzvlərinin layiqli tərəf-müqabili sayılırdı.

Əbubəkir 1973-cü ildə ansamblın solistlərindən Lyubov Xəlilova ilə mehriban ailə həyatı qurub.

Əbubəkir Məmmədov və Lyubov Məmmədova rəqs çəcütlüyü demək olar ki, Sovet İttifaqının bütün respublikalarında, böyük şəhərlərin səhnələrində çıxış etmiş, Azərbaycan rəqslərini xüsusi şövqlə və məharətlə sərgiləmişlər. Bu cütlük istər kütləvi, istərsə də duet rəqslərdə tam sərbəst, nizamlı, gözəl, nümunəvi icraçı və



sənətdə həmişə məharətli idilər. Onlar birlikdə xarici ölkələrdə də çıxış edib milli rəqslərimizin layiqli nümayəndəsi olaraq öz gözəl, maraqlı, cazibədar oyunları ilə alqışlar qazanıb qürur hissi keçirirdilər. Avstriya, Türkiyə, Tunis, Almaniya, Əfqanıstan, İtaliya (2 dəfə) və digər ölkələrdə Əbubəkir və Lyubov cütlüyü rəqslərimizi sevdirirdilər. Dövlət Rəqs Ansamblı xarici dövlətlərə bəzən bütöv heyətlə, bəzən qrup şəklində səfərlərə göndərilir və rəqs incəsənətimizi təbliğ edirdi. SSRİ məkanına isə bu ansambl tam heyətlə gedirdi.

1980-ci ildə rəqs ansamblı 22-ci Olimpiya Oyunlarının Mədəniyyət Proqramında, 1985-ci ildə isə Gənclər və Tələbələrin XII Ümumdünya Festivalında iştirak etmişdir. Ömrünü rəqs sənətinə məhəbbətlə həsr edən Əbubəkir Məmmədov iş yerindən 1990-cı ildə təqaüdə çıxmışdı.

Əbubəkir Məmmədov 2013-cü il mayın 10-da dünyasını dəyişib.

Lyubov Xəlilovna Məmmədova 1953-cü il fevralın 15-də Bakıda Orcenikidze rayonunda fəhlə ailəsində anadan olub. Ata-Xəlil Nayeviç Xəlilov milliyyətcə ləzgi idi. O, zavodda mexanik işləyirdi. Ana-Xəlilova Aleksandra Mixaylovna Xəlilova rus xalqının nümayəndəsi idi. O, Vaqon Təmiri Zavodunda baş mexanik işləyirdi. Valideynlər əmək zərbəçisi idilər.

Lyubov Məmmədova 1970-ci ildə 141 nömrəli tam orta məktəbi bitirmişdir. O, texnikuma daxil olmaq istəyirdi. Texnikuma hazırlaşarkən gözlənilmədən o, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında 1970-ci ildə yaradılan Dövlət Rəqs Ansamblında çalışmaq üçün müsabiqədə iştirak edir, tələb olunan göstəricilərlə ora qəbul olunur.

Axı, Lyubov uşaqlıqdan rəqs etməyi sevirdi və oxuduğu məktəbdə keçirilən müxtəlif tədbirlərdə, şənliklərdə və bayram konsertlərində rəqs edirdi. Onu məktəbdə çox sevirdilər, istedadı vardı, bütün konsertləri öz gözəl və şən rəqsləri ilə bəzəyərək xüsusi rövnəq qatırdı. Dövlət Rəqs Ansamblına gəlməsi əbəs deyildi. Rəqs onun qanında, canındaydı və səhnəyə maraq göstərirdi. Həm də tale məsələsi var axı... Rəqs onun taleyinə yazılıbmış.

Onun xatirələrindən: "Ansambl üçün müsabiqə çoxlu sayda iştirakçı arasında olduqca çətin və gərgin keçdi. Cəmi on gənc oğlan



və on gənc qız seçildi, mən də müsabiqədən əla keçdim və ansambla qəbul edildim. Komandaya seçilənlərin hamısına üç aylıq sınaq müddəti verildi. Biz isə (ansamblın birinci rəqqas qrupu) çox çalışmalı, bütün bacarığımızı tətbiq etməli idik ki, yeni rəqs ansamblına rəsmi olaraq dövlət statusu verilsin. Və biz bu statusa nail olduq. Mən fəxr edirəm ki, bu ansamblı yaradanlar sırasındayam".

Bir ildən sonra əsgərlikdən bu ansambla işləməyə daha bir gənc oğlan - Əbubəkir İsmayıl oğlu Məmmədov gəlir. O, Lyubovla müxtəlif rəqs nömrələrində qoşalaşmalı olur. Onların yaxınlığı, səmimi və isti münasibəti 1973-cü ildə baş tutur və onlar ailə qururlar. Beləliklə, yeni bir rəqs cütlüyü yaranır. Lyubovu dinlərkən: "Biz ansamblda ilk evli cütlük idik. Ansamblda işlədiyimiz bütün müddət ərzində xalq artistləri kimi ustadlardan çox şey öyrəndik və daim rəqs bacarıqlarımızı təkmilləşdirdik. Əlibala Abdullayev, Xumar Zülfüqarov, Leyla Vəkilova və Afaq Məlikova bu adlar sırasındadır. Demək olar ki, bütün Sovet İttifaqını gəzdik və həmçinin xarici ölkələrdə çox olduq". Lyubov Məmmədova 1991-ci ildə təqaüdə çıxıb.

Məhəbbətdən yaranan bu ailənin iki oğlu dünyaya gələrək boy atıb böyüyüb: Ruslan və Ramin Məmmədovlar.

Böyük oğlu Ruslan Məmmədov vaxtılə atasının qulluq etdiyi hərbi hissədə, Xəzər Hərbi Donanmasında xidmət keçib. Bu ailənin oğulları vətənpərvər ruhda tərbiyə alaraq böyüyüb formalaşıblar. Onlar 1992-1997-ci illərdə 1-ci Qarabağ müharibəsi zamanı vətənin müdafiəsi uğrunda fərqlənmişlər. Oğullar Sənaye Xidməti Şirkətində çalışırlar "Socar Cape" Xəzər dənizinin neft-qaz platformalarında Ruslan Məmmədov böyük usta, nəzarətçi, Ramin Məmmədov isə keyfiyyət müfəttişi vəzifəsində olaraq ölkəmizə xidmət etməkdədirlər.

Haşiyə çıxaraq bildiririk ki, bu cütlüklə birlikdə çalışmış ansambl üzvləri ilə söhbət etdikdə onların haqqında hər birinin dilindən xoş və səmimi sözlər eşitdim. Bu sırada Sirus Teymurov, Etibar Zeynalov və Xanlar Bəşirovun adını xüsusi vurğulayırıq.

**Əhsən RƏHMANLI**
**Tədqiqatçı, Sənətşünaslıq üzrə fəlsəfə doktoru**



# Tanıdığım Zakir Fəxri poeziyası



**Allahverdi Eminov**

Bu gün yaşımızın (mühari-bədən sonra doğulanları nəzərdə tuturam) o vaxtıdı - xatirələr üstümüzə gəlir, olmuşları yada salır, itirdiklərimizi yaşamağa səslə-yir. Bu səsin içində dostlarımız yada düşür, şən və qüssəli günlərimiz vərəqlənir. Necə ki, ötən əsrin 80-90-cı illərində cavan, saçısaqqalı qapqara, şüvərək boybuxunlu bir oğlanla tanış oldum. Mən Azərbaycan Xarici Dillər İnstitutunda müəl-limdim, "Pedaqogika" kafedrasının dosentidim. Bu oğlan həmin institutda bir qızı sevirdi. Tanışlığımız dostluğa çevrildi, doğmalaşdıq. Arabir dəniz kənarına çıxır, boş skamyada oturub söhbət edirdik. Şeir yazdığını deməmişdi, amma duymaq hissimdə yanılmamışdım. Nəhayət o, başı ilə təsdiq elədi. Bu oğlan Zakur Fəxriydi. Bu etirafdan sonra Zakirlə söhbətimiz poeziya barədə olurdu. O, cavan şairlərin ad-larını çəkir, hətta şeirlərindən nümunələr söyləyirdi. Mən isə daha çox sevdiyim gənc şairləri xatırladırdım; o cümlədən, Vahid Əziz, Ramiz Rövşəni, Tofiq Abdini, Ələkbər Salahzadəni, Camal Yusifzadəni, İsa İsmayılzadəni, Abbas Abdullanı. Xüsusilə, Vahid Əzizin poeziyasını sevdiyimi, yaxın dost olduğumu deyirdim. Zakir Fəxri azca fikrə getdi və Vahiddən bir bənd şeir oxudu:

***Səhərə nə qalır, ulduzlar sönür,***
***Səhərin yolları gecədən keçir.***
***Üfüqdə bir solğun şəfəq görnür,***
***Bu da bir qəribə gecədir, keçir.***

Mən bu şeirin yazılması tarixini söylədim: Şairin qəlbindən keçən bir kövrək gecə sevən aşiqlərin gileyindən doğan bir yuxu imiş. Zakir Fəxri fikrə dalmışdı, mən Vahiddən bir parça şeiri söylədim. O, diqqətini mənə yönəltdi:

***Sən bir dərya, sən bir gəmi,***
***Üzəcəyəm hara kimi?***
***Fələk adlı yelkənimi,***
***Qaçdım, bağlaya bilmədim.***
***Şəklinə tutdum üzümü,***
***Hönkürüb yumdum gözümü,***
***Oxşadım özüm özümü -***
***Yaxşı ağlaya bilmədim.***

İllər ötür, Zakir Fəxri zəng edir, sahildə görüşürdük. Hiss elədim o, ürəkdən sevir və bu məhəbbət ona sevgi şeirlərini "diqtə" edir. Bəzən sevgi aşiqə - şairə ba-ha başa gəlir, "Sənsiz"ləşir. Necə ki, onun "Sənsiz" şeiri oxucular tərəfindən sakit qarşılanmadı. Uşaqlıq və gənclik dostum Tofiq Abdinlə görüşdüm, o: - qəzetdə Zakir Fəxrinin şeirini oxudunmu, axı siz cavanlıq dostusuz, - dedi. - Məni bu şeir yamanca tutdu. Bir bəndini əzbərdən dedi:

***Təki sən xoşbəxt ol, sən xoşbəxt yaşa,***
***Bir daha demərəm "ölərəm sənsiz".***
***Ömrümü birtəhər vuraram başa,***
***Yaşayıb keçinə bilmərəm sənsiz.***

Haşiyə çıxıram: mərhum şair Tofiq Abdinlə bir kənddənik, bir məktəbdə oxumuşuq, həm də yaşıdıq. Bakıya da eyni ildə gəlmişik. Bir qızı dərindən sevirdi, qəfil qızı başqa oğlana verdilər. Bu əhvalat ona möhkəmcə təsir eləmişdi....

- Tofiq, - dedim. - Şeiri dünən oxumuşam, kövrəlmişəm, misralar adamı düşündürməyə bilmir, şeir barədə vaxtilə Zakir mənə danışmışdı, amma hələ yazmamışdı.

***Çalınar kədərim sarı sim kimi,***
***Gəl çilən ruhuma təbəssüm kimi.***
***Məzara baş çəkən bir yetim kimi -***
***İlk görüş yerinə gələrəm sənsiz.***

***Zakir Fəxri, hicran boş yuvam olub,***
***Yaşaram gah gündüz, gah axşam olub.***
***Pərvanə soraqlı dilsiz şam olub,***
***İçimdə ney kimi mələrəm sənsiz.***

Zakir Fəxri tanıdığım kimi nədən, kimdən yazırsa sevərək yaşayır hisslərini, belə məqamlarda sevgi heç bir halda ötüb keçmir, ürəyə daha çox sığınır. Hərçənd, sevgi məhəbbət deyil qovuşasan, sevgi şimşək kimi kainatı - ürəyi parçalayıb it-mir, başqa bir dünyaya çəkilir. Necə ki, şair "Bir az da sevdim səni" şeirini qələmə aldı. Mən bu şeiri çoxdan oxumuşdum.

Zakirlə demək olar görüşmürdüm, dərdləşmirdim, buna bir səbəb də qayğı-larımız günahkardı. Bu şeiri şair duyaraq, yaşayaraq vərəqə köçürüb - hansı yaşda deməyə çətinlik çəkirəm. Bəlkə də görüşlərimiz zamanı yazılıb, amma oxumayıb?

***Dağ çayının önündə***
***Axar sulara baxdım.***
***Qoşulub göy sulara***
***Sular axdıqca axdım...***
***Yenə yadıma düşdün,***
***Xatirə - xatirə sən***
***Gözlərimdən ötüşdün.***
***Pıçıldayıb adını***
***Axar sulara tutdum.***
***Bir az da sevdim səni,***
***Amma bir az unutdum...***

Şeir məni uzaqlara apardı, Zakirlə kirayə ev soraqlı illərə, küçə-küçə ayaq döyür, qapıları ümidlə açırdıq. Beləcə, mən də, o da səhəri nigaran qarşılayırdıq. Mən "dağlı məhəllə-sində" tapdım.

Zakir kəndi düşünürdü, dərindən köks ötürdü, mən ona təsəlli verirdim, şair-liyinə güvənməsini tövsiyə edirdim. O, çətinliyə baxmayaraq vüqarını qoruyurdu:

***Tək pencəkdə keçirtdim***
***Qarlı, şaxtalı qışı.***
***Sərt şaxtada, soyuqda,***
***Ayazda sevdim səni -***
***Bir az da sevdim səni...***
***Tanıtdım mən sevgimi,***
***Yola - rizə tanıtdım.***
***Qısıldım tək sevgimə,***
***Çölə, düzə tanıtdım.***
***Bir az da sevdim səni,***
***Amma bir az unutdum...***

Lakin sevgi bir gün daşlaşdı ögey sahilində, ruhu tənha dolaşır, gömgöy lə-pələr coşur, mahnılar vaxtsız ayrılığa qovuşur. Şair dərdini kimə söyləsin, köçəri quşlar da yox, göy üzü boş qalıb, təsəllisə bir xatirədirsə:

***Dərdimi boşaltdım***
***Ayrılıq quyusuna,***
***Xatirə bir daş atdım...***
***Aylar, illər ötsə də,***
***Hər an səni gözlədim.***
***Dönmədin... nə gizlədim,***
***Sevgimə çox umuddum.***
***Bir az da sevdim səni,***
***Amma bir az unutdum...***

Zakir Fəxri Bakıda ikən, şair və yazıçılarla oturub - durarkən yarıcanı kənddə - anasının yanında idi. Onunla görüşüb qayıdanda uşaq kimi sevinirdi. O illərdə o, anasına xeyli şeirlər həsr eləmişdi. Bəzilərini mənə oxumuşdu, fikrimi öyrənmək istəyirdi. O vaxt mənim də anam sağdı. Zakir Fəxri anasını xatırlayıb "Qaytar, ana, qaytar məni beşiyə" adlı unikal şeirini yazdı. O, necə də özünü xoş-bəxt duyurdu. Bu, o vaxtlardı - Zakir elə bil tənhalaşmışdı, "ərk etdiyi dostlar da üzünə durmuşdular", belə anlarda övlad anasına sığınmaq istəyir, beşiyə qayıtmaq istər! Şair də istisna deyil.

***Çəkilmişəm özümə,***
***yığılmışam içimə.***
***Kədər məni səsləmir,***
***səsləmir sevinc məni,***
***kimsə səsləməz məni,***
***bu darısqallıqdan***
***bir hovur çıxam eşiyə.***
***Qaytar, ana, qaytar məni beşiyə.***

Zakir Fəxri də başqa insanlar qədər anasını istəyrdi, onun üçün xiffət edirdi. Bir gün dedi ki, kəndə gedirəm, anamı yuxuda qarışıq görmüşəm. Yola düşdü və qayıdanda qüssəliydi. Təsəlli verdim. Sevindi, dedi ki, sözündən xeyli yüngülləş-di. Sonralar "Qara torpaq, muğayat ol anamdan" adlı misilsiz şeirini çap etdirdi. Mən başqa şairlərin də şeirlərini oxumuşam. Yaddaşımda Əli Kərimin "Qaytar ana borcunu" şeirini əbədi həkk olunub. Zakir Fəxrinin bu şeirini müqayisə edərdim Əli Kərimin misraları ilə. Ana sevgisini belə dərinlikdə tərənnüm etmək hər şairin işi deyil! Sağlığında qayğısına lazımınca qala bilməyən oğul məhəbbətinin təsəl-lisidir şeir.

***Yükünü çəkəmmədim,***
***Arzusunda bünövrəsini qoydğu***
***evini tikəmmədim.***
***Dumanlı köçdən ayrılıb,***
***ocağı başında yanammadım.***
***İşıq olub gözlərinə qonammadım,***
***Qara torpaq, muğayat ol anamdan.***

***Qulaq asmadım***
***xeyirxah dualarındakı***
***yalvarşlara.***
***Damar - damar qəmə dönüb,***
***çökdüm alnındakı qırışlara.***
***Xəbər tutammadım düşəndə xəstə,***
***Saxlaya bilmədim gözümün üstə,***
***Qara torpaq, muğayat ol anamdan***

Qara torpaqda uyuyan Analar üçün övladlar beləcə nigarandılar, axı, Torpaq da Analar üçün darıxır. Ölməz şairimiz Hüseyn Arif demişkən:

***Torpaq Anasız qalmasın deyə***
***Torpağın qoynuna köçür analar...***

Zakir Fəxrinin bu yaşında Anasız yaşamasına yalnız təsəlli verməK qalır. Təki, Ana soyuq torpaqda üşüməsin:

***Ölüm bəlli, olum yox***
***Yeri soyuq düşməsin,***
***Bürünməyə şalım yox,***
***İsti közümü yetir,***
***Külümdən duyuq düşməsin,***
***Qara torpaq, muğayat ol anamdan.***

***Qəbrinə gedən cığırlar,***
***barı itməsin,***
***illərin altında qalıb***
***qoy məzarı itməsin.***
***Qara torpaq, muğayat ol anamdan.***

Mən gənclik dostuma, istedadlı şair Zakir Fəxriyə can sağlığı və yaradıcılıq uğurları arzulayıram.

**Mart, 2025**